**Qarslı Asıq**
**İslam Ərdənər**

**Karslı**
**Aşık İslam**
**Erdener**

**Bakı 2016**

Azərbaycanlıların Mədəniyyət Mərkəzi
Lahiyənin rəhbəri: Fazil Həsənov

**Kitabı tərtib edən və nəşrə hazırlayanı:**
**Prof. Mahmud Kamaloğlu**
Redaktoru: Osman Əhmədoğlu, Gürcüstan Aşıqlar Birliyinin sədri.
Məsləhətçilər: prof. Hayrettin İvgin,.(Ankara), prof . Şurəddin Məmmədli,.(Ərdahan), folklorşünas Əli Şamil, (Bakı).

Bədii tərtibatcı: İlham Sarvanlı
Texniki redaktoru: Əsəd Mehdizadə
Korrektoru: Aysel Mahmudqızı
Kompüter yığıcısı: Lamiyə Əliyeva

Qarslı Aşıq İslam Ərdənərin ( 1921-1995) atası 20-ci yuzilliyin əvvəllərində Dağ Borçalısından Türkiyəyə məçburi şəkildə köcən Qarapapaqlardandır. Aşıq İslam Qars bölgəsində aşıq sənətimizin yayılması və inkişaf etməsində böyük xidmətlər göstərmiş, Borcalı agzı ilə cox sayda aşıq seiri nümunələri yazmışdır.

Kitaba sənətkarın həyatı, yaradıcılığı, müxtəlif illərdə yazdığı qoşmaları, divaniləri, gəraylıları, təçnisləri, deyişmələri, aşıqla bağlı bəzi rəvayətlərdən parcalar, onun Borcalıya səfəri zamanı ustad ozanlarla görüşləri, ziyalılarımızın xatirələri və s. daxil edilmişdir.

İndiyədək ustad ozanın hec yerdə nə şeirləri, nə də ki, özü haqqında ayrıca kitab cap olunmamışdır.

## KİTABIN İCİNDƏKİLƏR


1. Ön söz əvəzi...................................................................................3..
2. Həyatı...............................................................................................
3. Yaradıcılığı......................................................................................
4. Qoşmalar...........................................................................................
5. Gəraylılar..........................................................................................
6. Təçnislər...........................................................................................
7. Divanilər...........................................................................................
8. Həcv-daşlama....................................................................................
9. Deyişmələr........................................................................................
10. Ustadla bağlı rəvayətlərdən parcalar...........................................
11. Aşıq İslam Keşəlidə.....................................................................
12. Mikayil Azaflı və Aşıq İslam......................................................
13. Hüseyn Saraçlı və Aşiq İslam .....................................................
14. Dərviş Osmanın xatirələri...........................................................
15. Əli Şamil “Qarslı Aşıq İslam”.......................................................
16. Türkiyədən gələn məktubda nə vardı?.........................................
17. Öztürk Erbek “İslam Ərdənər”.....................................................
18. Qaynaqlar.........................................................................................
19. Kitabın xeyirxahı...........................................................................

# ÖN SÖZ ƏVƏZİ

Qədim türk tayfalarından biri olan Qarapapaqlar zaman-zaman müxtəlif coğrafiyalara səpələnmələrinə baxmayaraq, yaşadıqları bütün bölgələrdə öz ilkin gələnəklərinin əksəriyyətini günümüzədək qoruyub saxlaya bilmişlər.

Bir-biri ilə tam və hər tərəfli mənada sıx şəkildə eyni kökə bağlı olan Gürcüstanın Borçalı və Türkiyənin Qars və ətraf bölgələrinin Qarapapaq əhalisi təxminən yüz, yüz əlli il öncə məcburi şəkildə ayrı düşsələr də onların əzəli gələnəkləri cüzi dəyişikliklərə belə uğramadan hələ də hər iki toplumda qalmaqda, yaşamaqdadır.

Eyni türk toplumuna aid hər iki Qarapapaq əhalisi az qala bir-birinin qan qohumluğu əlaqələrini belə unudacağı bir zamanda Sovetlər birliyinin dağılması ilə tale onların üzünə təzədən gülümsədi. Ayrı-ayrı dövlətlərin sınırları içərisində yaşamalarına baxmayaraq, onların bu bağlılıq ilişkiləri yenidən bərpa olundu. Bir az da dəqiq desək, hər kəs öz soyunu, öz halal qan qohumunu tapdı, tanıdı və hər şey yenidən bərpa olundu.

Çox maraqlıdır ki, bu qədər uzun bir müddət bir-birindən tam ayrı və qapalı şəraitdə yaşayan bu əhalinin demək olar ki, nə kültürlərində, nə də ki, digər gələnəklərində elə bir ciddi dəyişiklik əmələ gəlməmişdir. Belə ki, istər qan qohumluğu əlaqələri, istər dil ləhcələri, istər mətbəx kültürləri, istər ağız ədəbiyyatları, istər aşıqlıq sənəti və s. və i.a. olsun günü bu günün özündə belə eyni ilə yaşamaqdadır.

Bu qədim adət-ənənələrin ən önəmlilərindən biri olan aşıqlıq sənəti də hər iki bölgədə eyni ilə qalmaqdadır. Bu ulu sənətlə bağlı təkcə bir faktı qeyd etmək istəyirik ki, Borçalı bölgəsində çox geniş yayılmış yüzədək saz havası bu gün Türkiyənin haqqında danışdığımız ərazilərində yaşayan Qarapapaq aşıqları arasında da eyni sayda, eyni tərzdə, eyni üslubda ifadə edilməkdədir. Bu dediklərimizi sübut etmək üçün bir neçə il öncə Ankarada Səlahəddin Dündar və Heydər Çətinkayanın  müəllifliyi ilə çap olunmuş "Tərəkəmələr (Qarapapaqlar)" və bu sətirlərin də müəlliflərindən biri olduğu "Borçalı aşıqları" kitablarında  verilmiş saz havalarının adlarına və saylarına nəzər salmaq kifayət edər.

Bu gün Borçalıda oxunan klassik havaların coxu hətta sözləri belə dəyişdirilmədən Qars bölgəsində böyük həvəslə bütün məclislərdə oxunmaqdadır. Bu da maraqlıdır ki, türk dünyasının böyük sənətkarı mərhum Səbri Şimşəkoğlunu dinləyərkən aşıq Hüseyn Sarclı ilə dəyişik salmaq olar. Böyük türk ozanı Hüseyn Saraclının oxuduğu bir çox havacatları xallarına, güllərinə belə toxunmadan, hətta səsini belə onun avazına bənzədərək oxuması adamı heyrətə gətirirdi. Bu cür misalların sayını istənilən qədər artırmaq olar.

Türk dünyası aşıq sənətində adı, ünü dünyayla bir olan Aşıq Şenniyi köhnə Borçalı Qarapapaq kişilərinin çoxu elə Borçalı aşığı kimi tanıyırdılar. Onlar elə bilirdilər ki, bu ulu ozan burda doğulub, sadəcə olaraq tez-tez Qars tərəflərə, daha çox da Çıldıra gedib gəlirmiş. (Doğrudur, Şennik dədənin əsli-kökü də Borçalı Qarapapaqlarındandır. Ancaq onun mənsub olduğu sülalə daha öncə Türkiyəyə köçənlərdəndir).

Texnikanın olmadığı həmin zamanlarda Çıldırdan tez-tez Borçalıya gəlib-gedən, Qarapapaq ellərində ağır məclislər keçirən, bir çox adı bəlli Borçalı ağaları ilə yaxından dostluq edən Aşıq Şennik bəlkə də ömrünün çox hissəsini dədə yurdunda keçirmişdir.

Borçalının ağır ellərindən biri olan ən çox da aşıqların meydan aldığı, saz-söz diyarı hesab edilən Faxralı kəndinə ustad daha çox gəlib-gedirmiş. Hər dəfə Borçalıya səfəri zamanı Şennik dədə ünlü Borçalı aşıqları ilə görüşmüş, bərabər məclislər keçirmişdir.

Günü bu gün də bütün sənət əhlinə və sənətsevərlərə yaxşı bəllidir ki, ulu ozan Borçalının igid Qarapapaq bəylərinə çoxlu şeirlər həsr etmişdir. Bu da çox maraqlıdır ki, aradan uzun illər keçməsinə baxmayaraq həmin şeirlər bu gün Borçalı məclislərində aşıqlar tərəfindən həmişə oxunur. Qasımlı Səməd ağa, Abdallı Kor İsmayıl və başqaları ilə ustad sənətkarın dostluğu, bu

xalq qəhrəmanlarına həsr olunmuş şeirləri və onların barəsində yaranmış dastanları bu gün hər bir Borçalı əhli əzbərdən bilir.

Günümüzdə də ustad Borçalı aşıqlarının əksəriyyəti Türkiyənin ünlü ozanları Aşıq Ruhani, Gövhəri, Qarani, Summani, Molla Xəlis, Çöllü İsmayıl, Aşıq Teyfi, Ustad Polad, Dəli Tamı və başqa sənətkarların yaradıcılığını gözəl bilir, yeri düşdükcə məclislərdə onlardan oxuyurlar.

Eləcə də əksinə, Türkiyədə Borçalının korifey sənətkarları Aşıq Sadıq, Aşıq Musa, Dollu Abuzər, Xındı Məmməd, Aşıq Əmrah, Hüseyn Saraclı, Aşıq Kamandar, Alxan Qarayazılı, Aslan Kosalı və başqalarını çox yaxşı tanıyırlar. El şənliklərində, düyünlərdə, eləcə də rəsmi toplantı və efirlərdə onların adlarını böyük ehtiramla çəkir, bu ünlü sənətkarların yaradıcılıqlarına müraciət edirlər.

Elə yeri gəlmişkən onu da qeyd edək ki, çağdaş türk aşıq məktəbinin bu günkü nümayəndələrinin əksəriyyəti Borçalı aşıq sənətinə böyük önəm verir. Onlardan bəhrələndiklərini də söyləyirlər. Aşıq İslam Ərdənər, Murat Çobanoğlu, Səbri Şimşəkoğlu, Şərəf Taşlıova, Maksut Fəryadi, Əmrah Nəroğlu, Günay Yıldız və s. kimi bir çox sənətkar Borçalı aşıq havalarını bütün məclislərdə böyük həvəslə, özü də elə Borçalı ağzı ilə oxuyurlar.

Əsli, kökü Borçalıdan olan bütün yaradıcılığı boyu bu aşıq məktəbinə yüksək dəyər verən belə ünlü sənətkarlardan biri də Aşıq İslam Ərdənər olmuşdur...

***

Aşıq İslam Ərdənərlə bağlı bu kitabın ərsəyə gəlməsində bizə yaxından köməklik göstərmiş bir çox dəyərli insanlara: o cümlədən, sənətkarın böyük oğlu, gözəl saz, söz bilicisi, şair Musa Ərdənərə, əslən Qarsın Dikmə köyündən olan Borçalı əsilli Alı Dündara, aşığın çox yaxın qohumu Veyis xocaya, gözəl tədqiqatçı elm adamı Əli Şamilə (Bakı), Gürcüstan Aşıqlar Birliyinin başkanı Dərviş Osmana, Keşəli Molla Əflatuna dərin təşəkkürümüzü bildiririk.

Məhz adlarını sadaladığımız bu xeyirxah insanların sayəsində türk dünyasının çox dəyərli sənət adamlarından biri olan İslam Ərdənərlə bağlı çox kiçik bir kitabı ortaya qoya bildik. Ancaq səmimi şəkildə bunu da etiraf etməliyik ki, ünlü ozan haqqında bu kitab çox xırda bir şeydir. Ümid edirik ki, gələcəkdə araşdırmacılar, saz-söz sevərlər, folklorşünas bilim adamları onun həyat və yaradıcılığı barədə daha geniş, daha ətraflı, daha böyük həcmdə, daha sanballı kitablar yazacaqlar. Bizə verilən bilgilərə görə, aşığın hələ yaddaşlardan toplanmamış çoxlu şeirləri var. Sənətkarın böyük ustadlarla bağlı xatirələri indiyədək dillərdə dolaşmaqdadır. Söylədiyi onlarla dastan hələ də toplanıb ortaya qoyulmamışdır. Bax, bütün bunlar yığılıb çap olunmalıdır.

Onu da qeyd etmək istəyirik ki, Aşıq İslam Ərdənərlə bağlı bu kitab ilk təcrübə olduğuna görə, heç şübhəsiz ki, bəzi nöqsanlardan və səhvlərdən də xali deyildir. Hər halda, ustad haqqında işıq üzü görən bu kitabı qüsurlarına baxmayaraq ustadın ruhuna böyük bir hədiyyə hesab etmək olar.

**P.S.**

Son günlərdə aldığımız məlumata görə, Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun əməkdaşı, böyük folklorşünas alim Əli Şamil Aşıq İslam Ərdənərin bütün arxivinin üzünü çıxardaraq Bakıya gətirmiş və çalışdığı institutun arxivinə vermişdir.

## Aşıq İslamın həyatı

İslam İsə (İsəxan) oğlu Ərdənər 1921-ci ildə Türkiyənin Qars vilayətindəki Kümbətli (Ladıkars) köyündə yoxsul bir ailədə dünyaya göz açmışdır. Onun doğulduğu Kümbətli köyü Qars şəhərinin günbatan səmtində, ondan təxminən bir-iki kilometr aralıda, Ərzurum yolunun sağ tərəfində 19-cu yüz ilin ikinci yarısında Borçalıdan köçən qarapapaqların məskunlaşdığı bir kənddir. İslamın atası İsə Seyid oğlu əslən Dağ Borçalısının Soyuqbulaq (vaxtilə onun dədələri Aran Borçalısının Dəmirçihasannı bölgəsindəki Kürüstü Keşəli kəndindən buraya gəlmişlər) kəndindəndir.

Soyuqbulaq kəndi Sovet Ermənistanının Kalinino rayonuna daxil idi. Bu kənd rayon mərkəzindən 15 kilometr günbatan tərəfdə Qaranlıq dərənin ağzı səmtdə, Oy dərəsinin ayağında bölgənin Qarapapaqlar yaşayan sonuncu yaşayış məntəqəsi idi. Bura ən yaxın kənd Başkeçidin Yırğançay kəndidir. Yırğançaydan baxanda bu ərazilərdə Borçalı Qarapapaqlarının vaxtilə yaşadığı bir bir çox dədə-baba kəndləri, o cümlədən, Soyuqbulaq, Cücəkənd ovuc içi kimi çox aydınca görünür. Bu üç türk kəndi yüzilliklərdir ki, sac ayağı şəklində bir-birindən 4-5 kilometr aralıda bərqərar olmuşdur.

Sadaladığımız bu kəndlər son dövrlərdə Ermənistan sınırları içərisində qalmış digər yüzlərlə Qarapapaq türklərinin kəndləri kimi 1990-cı illərdəki son məlum olaylar ilə ilgili olaraq məcburi şəkildə öz tarixi dədə-baba yurdlarını birdəfəlik tərk etmək məcburiyyətində qalmışlar.

İslamın anası Laləzər xanım da (İsənin birinci arvadı Gövhər xanım vəfat etdiyi üçün, o Türkiyədə yenidən ailə həyatı qurmuşdur) Qarsın Dikmə köyündəki Borçalıdan köçmüş (19-cu yüz il Rusiya-Türkiyə savaşı ilə ilgili) Qarapapaqlardandır. Dikmə köyü də Ərzurum yolunun sol tərəfində, Kümbətlidən təxminən 2 kilometr gündoğar səmtdə yerləşir.

Yuxarıda da anlatdığımız kimi, İsə Seyid oğlu İslam hələ dünyaya gəlməmişdən təxminən bir-iki il öncə Borçalıdan sonuncu dəfə Qars tərəflərə qaçqın düşənlərdəndir. Onu da qeyd etmək istəyirik ki, bu son köç Sovet hakimiyyəti qurulan zamanlara düşdüyünə görə, sərhədi ancaq çox gizli şəkildə az sayda insan keçmişdir.

İsənin də məqsədi bir çox digər həmyerliləri kimi, Türkiyəyə keçib özünə yurd-yuva qurandan sonra təzədən geri dönüb bütün ailəni aparmaq idi. Lakin həmin vaxtlar, qadağalar bərkiyir, ara kəsilir, bu toyda qalanları o üzə keçirmək mümkün olmur. Elə İsənin faciəsi də bir çox digər həmyerliləri kimi, buradan başlayır: atası Seyid kişi, ilk nikahdan olan körpə qızı Anaxanım və digər ailə üzvləri ömürlük bu tərəfdə - Soyuqbulaq kəndində qalırlar. Sonralar dədəsinin himayəsində böyüyən Anaxanıma sənəd verilərkən məcburi şəkildə (əslində qorxudan) ata adı yerinə Seyid qızı yazırlar. Anaxanım böyüyüb həddi-buluğa çatanda bu sətirlərin müəllifinin də mənsub olduğu Keşəlidəki Qıllözdü nəslindən olan çox böyük hörmət-izzət sahibi Omar Usub oğlu ilə ailə həyatı qurur.

Sadə və yoxsul bir kəndli ailəsində böyüyən İslam İsə oğlu çox gənc yaşlarından meylini bölgədə geniş yayılmış, Qarapapaqların ən çox sevdiyi bir sənətə -aşıqlığa salır. 14-15 yaşlarında saz çalmağı öyrənir. Telli saza vurğunluq onu heç vəchlə öz məqsədindən başqa səmtə döndərə bilmir. Öz-özünə qəti bir qərar verir: hökmən aşıq olacağam. Gecə-gündüz öz üzərində bərk çalışır, bu sənətdə ətrafındakılardan bölgədə ad-san qazanmış Arpaçayın Keçit köyündən Aşıq Mansur, Bəzirgan köyündən Aşıq Əziz, Oğuzlar köyündən Aşıq Lətif, Uzunzaim köyündən Aşıq Mirzə, Aşıq Hüseyn, Aşıq İbrahim, Yusiflidən Aşıq Huzuri, Muş-Bulanık ilçəsindən Aşıq Namaz və başqalarını çox dinləyir, onların sənətkarlığından ilham alır və az-çox nəyisə öyrənə bilir. Zaman keçdikcə gözəl avazı, möhkəm hafizəsi, saz çalmaq bacarığı yavaş-yavaş onu məqsədinə doğru yaxınlaşdırmağa başlayır. Bir də gözünü açanda özünü məclislərdə görür. Ancaq yaxşı bir sənətkar olmaq üçün bunlar kifayət etmir, o mütləq bir ustad sığalından keçməli olduğunu düşünür. Elə elin ağsaqqalları da ona mütləq yaxşı bir ustada qulluq etməyi – çıraq olmağı məsləhət görürlər.

İslamın təxminən 20 yaşı olanda o, özündəki aşıqlıq bacarığına tam güvəndiyi üçün ustada qulluq etmək məqsədilə bölgənin ünlü ozanı Aşıq Qasımın yanına gedir. Aşıq Qasım adı-ünü aləmə səs salmış ozanlar ozanı Aşıq Şenniyin oğlu idi.

Böyük ustadın oğlu gənc İslamı hörmətlə qarşılayır, onu çox da ağıra-yüngülə salmır, çək-çevir eləmir, bir neçə hava çaldırır, bir neçə mahnı oxudur. Aşıq Qasımın ona çıraq olmasına razılıq verməsi İslamı çox sevindirir.

İslam Aşıq Qasımın yanında qaldığı günlərdə ustaddan çox şey öyrənir, sənətdəki bir çox sirlərə yiyələnir.

Günlər ötdükcə böyük sənətkarın ocağındakı çıraq – gənc İslam da yavaş-yavaş sənətdə yükünü götürməyə, kamilləşməyə başlayır.

Vaxtı gələndə ustadı onu özü ilə bərabər bütün Qarapapaq ellərini kəndbəkənd gəzdirir, ağır məclislərə aparır. Gənc aşıq da ustadını utandırmır, hər yerdə - getdikləri bütün toy-düyünlərdə onun üzünü ağ edir.

Az zaman içərisində Aşıq Qasımın gənc çırağının ünü Qars, Ərdahan, Sarıqamış, İqdır, Çıldır və başqa bölgələrə yayılır. Nəhayət, zaman yetişir, Aşıq İslam özü müstəqil olaraq toy-düyünlər aparmağa başlayır. O, apardığı məclislərdə nəinki, saz çalıb-oxuyur, eləcə də ustadlardan eşitdiyi dastanları söyləyir, bədahətən şeirlər deməyə başlayır.

Aşıq şeiri üslubunda yazdığı qoşmalardan başqa İslam Ərdənəri tanıtdıran, onu ən çox sevdirən yazdığı təcnisləri bölgədəki Qarapapaqların dilində əzbər olur.

Doğrudur, Aşıq İslam Ərdənər çox şeir yazmamışdır, ancaq qələmindən çıxanların hamısı dəyərli şeir nümunələri kimi hamı tərəfindən rəğbətlə qarşılanmışdır.

Aşıq İslam Ərdənər ustad aşıq zirvəsinə yüksəlmiş bir sənətkar olmuşdur. Onun yaradıcılığı təkcə aşıq şeiri üslubunda gözəl əsərlər yazmaq, dastanlar söyləmək olmamışdır. Onun özü ilə bağlı xeyli ibrətamiz hekayələr bölgə əhalisinin dillərindən heç vaxt düşmür.

Aşıq İslam 1947-ci ildə öz anasının köyü olan Dikmədən Gülzadə adlı bir xanımla evlənmiş və onun bu nikahdan 7 övladı dünyaya gəlmişdir: qızı Mənzurə, oğlu Musa, qızları Naimə, Saimə, Songül, kiçik oğlanları İsəxan və Sədi. Çox təəssüflər olsun ki, Sədi çox erkən – 11 yaşında, Saimə isə 27 yaşında doğum zamanı zəhərlənmədən vəfat etmişdir. Qalan övladları həyatdadırlar.

Böyük sənətkar özündən sonra da keçmiş ustadları kimi, xeyli şagird yetişdirir. Sonradan onlar da ünlü sənətkarlar kimi tanınmış aşıqlar olmuşlar. Belə ünlü sənətkarlardan biri Səbri Şimşəkoğlu olmuşdur. Ondan başqa aşıq Əmrah Nəroğlu, aşıq Ali Rza Ezgin, aşıq Bilal, öz oğlu Musa Ərdənər və s. Aşıq İslamın sənət aləminə bəxş etdiyi böyük töhfələrdir.

Aşıq İslam 1972-ci ildə dədə-baba yurduna səfər etmişdir. Borçalıdan qayıtdıqdan dörd il sonra 1976-cı ildə o, İrana getmişdir.UstadTəbrizdə 25 gün qalmış, buradakı ünlü aşıqlarla görüşüb, söhbətləşmişdir. Güneyli Aşıq Qəşəmlə xeyli deyişmələri olmuşdur. Aşıq Hasan Kaffari və bir çox İranlı aşıqlarla görüşləri və tanışlığını uzun müddət xatırlamışdır.

Amerika, İngiltərə və Almaniyadan Ərzurum Atatürk Universiteti ədəbiyyat fakültəsinə gələn araşdırmaçı türkoloqlar Qarapapaq şivəsi ilə maraqlanarkən onlara ancaq Aşıq İslam Ərdənəri məsləhət görmüşlər.

Amerikalı araşdırmaçı Valker, İngiltərəli C.S.Mendi və alman araşdırmaçısı Erhad iki gün boyunca Aşıq İslamla müsahibə aparmış, onu həm danışdıraraq, həm də saz çalıb oxudaraq, şeir söylədərək kasetlərə köçürmüşlər.

Ancaq indiyədək Türkiyədə onun heç bir kitabı çap olunmamışdır. 1960-cı ildə İslam Ərdənər "Çıldırlı Aşıq Şenlik divanı" adlı kitabını Qarsda bastırmışdır.

Aşıq İslam Ərdənər 1995-ci ildə 74 yaşında dünyasını dəyişmişdir. Onu doğulduğu Kümbətli (Ladıkars) köyündə dəfn etmişlər. Məzar daşının üstündə özünün yazdığı "Dünyanın" şeirindən ilk və son bəndləri həkk olunmuşdur:

Olmadıysa səxavətin, hörmətin,
Nəyə yarar sərvət, malı dünyanın.
Bir gün bitər ömür denən müddətin,
Əzəldən belədi halı dünyanın.

Nə nökər, nə ağa, nə bəy, nə paşa,
Kimsə yetirmədi ömrünü başa,
İslamın da adı yazılar daşa,

Bilinməz ərkanı, yolu dünyanın.

## Aşıq İslamın yaradıcılığı

Aşıq İslam şeir yazmağa çox gec başlamışdır. Yəni onun aşıq şeiri üslubunda yazdığı qoşquları İslam Ərdənər bir ustad aşıq kimi tanınıb məşhurlaşandan sonra üzə çıxmışdır. Ola bilsin ki, o gənclik illərindən şeir yazırmış, ancaq onları ahıl yaşlarında məclislərdə oxumağa başlamışdır. İndiyədək aşığın şeirləri çap olunmadığına görə onun əsərləri haqqında doğru-dürüst fikir söyləyənlər də olmamışdır. Müasirləri və sənətkarı yaxından tanıyanların söylədiklərinə görə Aşıq İslam çox şeir yazmamışdır.

Ustad sənətkarın böyük oğlu, gözəl saz, söz bilicisi, şair Musa Ərdənərin verdiyi məlumata görə, aşığın təxminən iki yüzə yaxın şeiri olmuşdur. Hətta bir dəfə Musa bəylə Aşıq İslam arasında olan söhbət əsnasında oğlu soruşmuşdur ki, “baba, nəyə görə az şeir yazırsan?”, ustad belə cavab vermişdir: “Oğul, onlarca aşığın, şairin şeirini bilirəm, hər dəfə qələmi əlimə alıb şeir yazmaq istəyəndə onların hər hansı birindən bir sətir almış olsam, bu mənə yaraşmaz. Hafizəmdə ustad aşıqlara aid minlərcə şeir var, onun üçün şeir yazmaq istəmirəm”, demişdir.

Aşıq İslam öz yaradıcılığında əsasən klassik aşıq şeiri üslubuna daha çox yer vermişdir. Belə ki, o qələmini qoşma, divani, təcnis (cığali təcnis), dodaqdəyməz, müxəmməs və s. şeir janrlarında sınamışdır. Əlbəttə, bu da səbəbsiz deyildir. Çünki, İslam Ərdənər özü bir ustad aşıq olduğu üçün, təbii ki, o, sələflərinin yolunu davam etdirməli idi.

Şair-aşığın yazdıqlarının əksəriyyəti çox gözəl klassik aşıq şeiri nümunələridir. Təbii ki, bu da onun daha çox sənətindən irəli gəlirdi.

Onun qələmə aldığı şeirlərin dili həddən ziyadə sadə, xalq danışıq dilinə çox yaxındır. Özünün də danışdığı Qarapapaq ləhcəsində işlənən sözlərə əsərlərində çox yer versə də bölgədəki yerli türkcəyə də müraciət etmişdir.

Aşıq İslam 1972-ci sənədə ilk dəfə dədə yurdu Borçalıya gələndə doğmalarının Qarapapaq ləhcəsi ilə danışdıqlarını eşidərkən çox duyğulanmış, sevincindən göz yaşlarını saxlaya bilməmişdir. Sonralar o, öz şeirlərinin birində bu barədə belə yazmışdır:

İsmətinə heyran oldum elimin,
Daddım ləzzətini şirin dilimin.

Bu gün Borçalı Qarapapaqlarının ləhcəsində daha çox işlənən “qarğın”, “oyalan”, “əppək”, “haşa”, “seyraqıf”, “mazarrat”, “beyilqar”, “beyvəfa”, “şenlənif” və s. kimi söz və ifadələrə Aşıq İslamın bütün əsərlərində demək olar ki, tez-tez rast gəlmək mümkündür.

Yuxarıda da söylədiyimiz kimi şair-aşığın əsərlərində eyni zamanda yerli Osmanlı türkcəsində işlənən “çatal dilli”, “hızla dönürsən”, “koşa səninlə”, “okyanus”, “hisarlı qalalar” və s. başqa söz və ifadələrə də yetərincə rast gəlinir ki, bu da onun bədii yaradıcılığının zənginliyindəndir.

Bundan başqa onun şeirlərində az da olsa arxaık sözlərə ara-sıra təsadüf olunur. Aşıq İslam öz yaradıcılığında klassik şairlərimizin tez-tez işlətdikləri “hilal qaşlar”, “siyah zülflər” “gül camalın”, “xoş avazın”, “bulunar əmsalın”, “qırxlar məclisi”, “işvə naz”, “camalın şölə salıb” və s. ifadələri gözəllərin vəsfini nəzmə çəkərkən hər bir şeirində çox məharətlə və yerində söyləmişdir.

Eləcə də aşıq işlətdiyi bir çox dədə sözlərinə, zərbi-məsələlərə də müraciət etmiş, yeri gəldikcə onları da dönə-dönə şeirlərində işlətmişdir. Onun şeirlərində toponimlərə -- tarixi yer adlarına da istənilən qədər rast gəlinir.

İstər klassik ədəbiyyatımızda olsun, istərsə çağdaş şairlərimizin yaradıcılığında, təbiət gözəlliyinə, xüsusən füsunkar dağlara çox sayda əsərlər həsr edilib. Heç, şübhəsiz ki, belə mövzular onun yaradıcılığından da yan keçməyib. Aşığın cığalı təcnisləri içərisində “Dağlarda” adlı dodaqdəyməzi çox dəyərli bir klassik aşıq şeiri nümunəsidir.

Onun bu mövzuda yazdığı şeiri də öz orjinallığı ilə fərqlənir. Şair - aşıq yazır:

Yazın əzəl ayı qeyzə gələndə,
Yağış yağar, qarğın salar dağlarda.
Aşıq deyər dağlarda,
Səyyah gəzər dağlarda,
Yaz gələndə el çıxar,
Seyran edər dağlarda.
El qayıdar, aranlara çəkilər,
Hisarlı qalalar, qalar dağlarda...

Deyən şair, əzəmətli dağların fəsildən-fəsilə necə dəyişdiyini, hər mövsümdə onun təbii gözəlliyini çox incəliklə qələmə almışdır. Təkrarən qeyd etmək istəyirik ki, dağlara həsr edilmiş şeirlər hər bir şairin yaradıcılığında müxtəlif cür, müxtəlif rəsm əsəri kimi oxucuların gözü önündə yeni səhnələr yaradır.

Ümumiyyətlə götürsək, Aşıq İslamın şeirlərində bir dənə də olsun anlaşılmayan söz və ifadə yoxdur. Fərqi yoxdur, istər türk oxucusu olsun, istərsə də Azərbaycan. Onun əsərlərinin dili çox sadə, oxunaqlı, axıcı və tez yadda qalandır.

Qeyd etmək istəyirik ki, Aşıq İslam Ərdənər sıradan bir ozan deyildir. O, tam mənada ustad bir sənətkar olmuşdur.

Ancaq təəssüflər olsun ki, folklorşünas tədqiqatçılar onu çox gec axtarıb tapmış və yaddaşında olan bir çox dastanı, aşıq şeiri üslubunda olan qoşquları və s. digər ağız ədəbiyyatı nümunələrinin çox az bir hissəsini lentə ala bilmişlər. hal-hazırda internet saitlərində Aşıq İslamın söylədiyi dastanlardan parçalar vardır ki, bu da onun yaddaşındakılarının çox az bir hissəsidir.

***

Sayğıdəyər oxucular, aşığın şeirlərinin dil xüsusiyyətlərinə,ləhcə üslubuna toxunmadan,hansı mənbədən necə əldə etmişiksə,heç nəyə əl gəzdirmədən,olduğu kimi saxlayaraq nəşr olunmasını məsləhət bildik. Orjinallığın saxlanması ilə əlaqədar olaraq şeirlərdə bəzi pozuntulara və xətalara da rast gəlinə bilər. Oxuculardan bunları nəzərə almalarını xahiş edirik.

## QOŞMALAR

### Tərəkəmə

Nə gözəl huyludur tərəkəmələr,
Dərdini bölərlər el arasında.
Ağlasam ağlarlar, gülsəm gülərlər,
Göz yaşımı silərlər el arasında.

Ağır məclisləri, xoş söhbətləri,
Gözəl nişanəli xoşdur kəndləri.
Mərhəmətli, duyğulu millətləri,
Dərdini bölərlər el arasında.

Tərəkəmə əsilzadə nəsliyəm,
Özüm qocalmışam, çox həvəsliyəm.
Adım Aşıq İslam, Ladıkarslıyam,
Xatırım sayarlar el arasında.

### ÖLDÜ

Bu fani aləmdə insaniyyəti,
Bilənlər də öldü, bilməyənlər də.
Doyunca keyf alıb, ləzzətdən daddan,
Gülənlər də öldü, gülməyənlər də.

Vara yaltaxlanıf, yala ürüyən,
Dərdə ortax oluf, qəmdən əriyən,
Kədərdən gözünü yaşlar bürüyən,
Silənlər də öldü, silməyənlər də.

Dərd əhli də getdi, dərtsiz-qəmsiz də,
Əfəndi də getdi, tərbiyəsiz də,
İnsaflı da getdi, çox insafsız da,
Çalanlar* da getdi, çalmayanlar da.

Altı yüz yaşadı Sultan Süleyman,
Heç kimsə bulmadı ölümə dərman.
İslam der; orada lazımdır iman,
Olanlar da öldü, olmayanlar da.

---

*(Çalan – oğurlayan, xırsız)

### BU QƏDƏR OLMAZ...

Qəm nəşəm olmalı dediysəm əgər,
Çox anam ağladı, bu qədər olmaz.

Bir yannan el dərdi, bir yannan kədər,
Sinəmi dağladı, bu qədər olmaz.

Mənmi xata etdim, qədərmi yanlış,
Kimlər ah eylədi, kim etdi qarğış.
Bu nə şans, nə taleh, bu nasıl bir iş,
Baxtımı bağladı, bu qədər olmaz.

Olmadı verdiyim əkməkdə duzum,
Yanlış anlaşıldı ən gözəl sözüm.
Buz tutmuş sulardan yandı bu ağzım,
Susmamı sağladı, bu qədər olmaz.

İslam bu dünyadan almadı dəmin,
Dostu oldu dərdin, kədərin, qəmin.
Olmaq istəyirəm özümnən əmin,
Ürəyim çağladı, bu qədər olmaz.

## SORMAYIN

Nədəndir deməyin bu qəm, bu sitəm,
Fələk saldı imtahana, sormayın.
Bel büküldü, saç ağardı, yoruldum,
Ataş düşdü şirin cana, sormayın.

Sormayın dərdimi, yoxdur ilacı,
Hayıf ki, yadları etdim baş tacı.
Namərdin loxması zəhərdən acı,
Ataş aldım yana-yana, sormayın.

Ürək doluf yürəyəcək çığ kimi,
Könlüm oluf bir verana bağ kimi.
İslam xasta, amma gəzir sağ kimi,
Dərdi deməz, bir loğmana sormayın.

## QALMAMIŞ

Qoca təbiətin, fani dünyanın,
Sönüf od-ocağı, közü qalmamış.
Öyünərək yaratdığı insanın
Çürüyüf içində özü, qalmamış.

Hanı mənim o duyğusal millətim,
Hanı gələnəyim, örfüm-adətim,
Hanı məhəbbətim, sözüm-söhbətim,
Nə kəndisi, nə də izi qalmamış.

Nə mərhəmət, duyğu, nə də ar-haya,
Hər şey dəyişilmiş pula-paraya.
Məlhəm sürən yoxdu dərdə-yaraya,
Dostun dosta qarşı üzü qalmamış.

Xülasə, işimiz qaldı Allaha,
Sığındım Qurana, Kəlamullaha.
Artıx nə söyləsin, sormayın daha,
İslamın deyəcək sözü qalmamış.

**DÜNYA**

Kimiyə baxeram, dəmdə-dövranda,
Səfasını sürüb gəzir seyranda,
Baxeram, kimisi qalıb boranda,
Yoxsulluxnan qoyuf baş-başa dünya.

Əzəldən belədi, tərs dönür çarxı,
Bileydim kim qoyuf buna bu nırxı,
Biri oh deyirsə, ax deyir qırxı,
İmkan yox sirrinə ulaşa dünya.

Verdiyinə verif, gülür ha gülür,
Nə qəm, nə qasavat, ağlamaq bilir.
Eləsi var gündə on dəfə ölür,
Salıfdı ağzını yoxuşa dünya.

Dedim ki qonağam, həddimi bilim,
Qəmimi dağıdem, yaşımı silim.
İslamam, şad oluf bir zaman gülüm,
Baxdım irast gəldi sərt daşa, dünya.

**DAĞLAR**

Nə gözəl yaradıf yaradan səni,
Ağıl erməz onun işinə dağlar.
Türlü-türlü nəbatatlar yetişir,
Naxış verif sənin daşına dağlar.

Ətəyində yaz var, başında duman,
Ellər mehman olur yayda bir zaman.
Yazın gözəl, zəmhəri də çox yaman,
Baxmazsan gözlərin yaşına dağlar.

Şair ilham alar sizə baxdıqca,
Qoşa bulaqlardan sular axdıqca.
Ellər köçüb yaylalara çıxdıqca,
Duman, çiskin gələr başına dağlar.

Aşıq İslam genə sizə mehmandı,
Baxeram, hər yanın meşə-ormandı.
Çiçəhlərin çox dərtlərə dərmandı,
Oniçin düşərlər peşinə dağlar.

**AZ QALIF**

Əshabi-Kəhf yuxusunda yatanlar,
Gəlin görün, qiyamata az qalıf.
Qan əmən çoxalıf, mərtlik yox oluf,
Fələk qəddarlaşıf, zaman qocalıf.

Sel oluf məzlumun gözünün yaşı,
Bir paraya satar qardaş qardaşı.
Göylərə ucalıf namərdin başı,
Fələk füqərayı həngamə salıf.

Nə iman edən var, nə də inanan,
Nə mərhəmət edən, nə canı yanan.
Nə dərt bilən təbib, nə haldan qanan,
Nə kimsəyə güman, nə umut qalıf.

Başa bəla olub bedasıl illət,
Həngaməyə düşüb beçərə millət.
İslam, öz işini gəl özün həll et,
Kimsədən fayda yox, zaman bed oluf.

**OLMARAMKİ...**

Bu yalan dünyada, namərd yanında,
Xəstə olur cismim, ey olmaram ki.
Tuta bilsəm mərt kişinin əlindən,
Xoş keçər ömür-gün, zay olmaram ki.

Namərd olan yerdə məskən salmaram,
Versələr dünyayı, yenə almaram.
Mən də öz-özümə huri-qılmanam,
Gedib zəbaniyə tay olmaram ki.

Ona boyun əyən tez namərd olar,
Nə insaf tanıyar, mərhəmət bilər.
İslama talehi bə nə vaxt gülər,
İnnən belə ağa-bəy olmaram ki.

**ÇIXMAZ**

Bivəfa dünyanın cəfasına bax,
Əyri-üyrü gedən yol başa çıxmaz.

İndi fələk zalımlara düşübdü,
Namərdlə cəng edən qul başa çıxmaz.

Doğru məzlum olar, məzlum dolanar,
Məzlumun halından mərd olan anlar.
Mərd sükuta varar, namərd anladar,
Ədəbsiz namərdlə el başa çıxmaz.

Gəl beçərə İslam, söylə sözünü,
Kimsə bilməz ürəyində közünü.
Namərd məclisində çalsan sazını,
Qırılır təzanə, tel başa çıxmaz.

**BU YERLƏR**

Anadolumuzun gənc aşığıyam,
Yara həvəs verən yerdi bu yerlər.
Əbədi elimin bir işığıyam,
Şairlər yetirən yerdi bu yerlər.

Həvəs ilə gözlər doğan günəşi,
Qartal yuvasına soxmaz bayquşu.
Zəmin həsrət baxar səmaya qarşı,
Düşməni batıran yerdi bu yerlər.

Aşıq İslam deyər, qurban vatana,
Vatanı qurtaran böyük atana.
Həpimiz qurbanız cənnət vatana,
Bol məhsul bitirən yerdi bu yerlər.

**BİR YANDA**

Keşkə bu dünyaya gəlməz olaydıq,
Arzular bir yanda, bizlər bir yanda.
Doğduğumuz günü həmən öləydik,
Arzular bir yanda, bizlər bir yanda.

Dünyada dövranım qısa bir yoldu,
Heç üzüm gülmədi, irəngim soldu.
Ehtiyaclar bizi beşikdə buldu,
Arzular bir yanda, bizlər bir yanda.

Namərdlər peşində həp biz süründük,
Fağırlığın xirqəsinə büründük.
Köylü olduğmuzdan fəqir görüldük,
Arzular bir yanda, bizlər bir yanda.

Nə bir ayax olduq, nə bir baş olduq,

Qəm-kədər əlindən xurda xuş olduq.
Onunçün planda vətəndaş olduq,
Arzular bir yanda, bizlər bir yanda.

Sözdən hissə alan əhli-kamildi,
Zalımlar yaşadı, məzlumlar öldü.
Heç durmadan qanlarımız əmildi,
Arzular bir yanda, bizlər bir yanda.

Qədərlə baş-başa etdik qənaət,
Qaranlıqda bizi buldu kainat.
Yaxındır, inşallah, gün doğar əlbət,
Arzular bir yanda, bizlər bir yanda.

Ömürlərimiz keçdi ahı-vah ilə,
Bülbül həsrət gülə, gül də bülbülə.
Eheyy... qoca aşıx İslam, çox inlə,
Arzular bir yanda, bizlər bir yanda.

## MAT QALDIM*

Ay ellər, mən sizə vəsf edim gəlin,
Mən orda söhbətə, sözə mat qaldım.
Şairə, şeirə, dastan deyənə,
Aşığın çaldığı saza mat qaldım.

Gəzdim o aranı, gördüm Göy dağı,
Bərəkətdən coşub Kürün qırağı.
Gözəl bar veribdi baxçası-bağı,
Ordakı bahara, yaza mat qaldım.

Yazsam yazdığımı, yazardım nələr,
Həsrəti ox kimi sinəmi dələr.
Mənnən yaşayacaq bu xatirələr,
Ürəkdən deyirəm sizə, mat qaldım.

Aşıq İslam gəşt eylədi, dolandı,
Bəzən çox duruldu, bəzən bulandı.
Həsrətin, hicranın oduna yandı,
Sinəm üstə yanan közə mat qaldım.

---

*Aşıq bu şeiri Borçalının Keşəli kəndinə həsr edib

## MƏN ORDA*

Əbədi elimin okyanusunda,
Bir səfinə kimi üzdüm mən orda.

Şairin, şeirin, sazın, sənətin,
Zirvə imiş yeri, sezdim mən orda.

Gedib görmək idi diləyim-əhdim,
Mənə bəxş eylədi talehim-baxtım.
Vurğunun gəzdiyi çöllərə baxdım,
Gözümlə gəşt edib, süzdüm mən orda.

Bəzən çox sevindim, güldüm-şad oldum,
Dastanlar dinlədim, ilhamla doldum.
Bəzən də qəm, hicran köşkünə daldım,
Kədərə, hüzünə dözdüm mən orda.

İsmətinə heyran oldum elimin,
Daddım ləzzətini şirin dilimin.
Səbəbi nə gözdən axan selimin,
Fikrə gedib onu çözdüm mən orda.

Aşıq İslam hərdən fikrə dalanda,
Gəzdiyi yerləri yada salanda,
Aşıqlar sədəfli sazı çalanda,
Sinə dəftərimə yazdım mən orda.

______

*Şeir Borçalıya həsr olunub

**GÖRDÜM**

İllər boyu həsrət idim bajıma,
Borçalıya gedib, onu şad gördüm.
Dedim bir son qoyum mən bu ajıma,
Qohum gördüm, qardaş gördüm, yad gördüm.

Borçalı mahalı, Keşəli kəndi,
Şadlığa bələndi, bayrama döndü.
Sufralar açıldı, od-ojax yandı,
Unudulmaz ləzzət gördüm, dad gördüm.

Çox şükür, şennənif odu-ojağı,
Məni şad eylədi dolu bujağı.
Gözəl bar verifdi baxçası-bağı,
Qəmbər* tək vəfalı bir övlad gördüm.

Azaflının** qəm-kədər var sözündə,
Çəkdiyi əzabın izi üzündə.
“Dilqəmi”, “Dübeyti” çalar sazında,
Sinəsində yanan od-alov gördüm.

______

*Aşığın Keşəlidəki bacısı oğlu

*Aşıq Mikayıl Azaflı

Gəşt etdim aranı, seyr etdim Kürü,
Xəyalən gəzirəm yenə o yeri.
Bu elə gəldiyim saatdan bəri,
Yaddan çıxmayacaq söz-söhbət gördüm.

Saraşdı Söyünnən,* Kamandar** qağa,
Hər ikisi bənzər qaynar bulağa.
Sənətində oxşar uca bir dağa,
İlhamını yel qanadlı at gördüm.

Borçalı elində gördüyüm hamı,
Şadlığa çevirdi qəmli dünyamı.
El bağrına basdı Aşıq İslamı,
Çox böyük gələnək, örf-adət gördüm.

_____

*Aşıq Hüseyn Saraçlı
**Aşıq Kamandar Əfəndiyev

**KƏM BAXMA**
(Oğlum Musaya)

Oğul, öyüd dinlə, itaət eylə,
Əhli-dilsən, əhli-dilə kəm baxma.
Məni özün bilib, özünü də mən,
Qohuma, qardaşa, elə kəm baxma.

Eldən uzaq durub, sığınma yada,
Əgər dara düşsən el yetər dada.
Hər şey gəlir keçir fani dünyada,
İnanıb getdiyin yola kəm baxma.

Mən eldən öyrəndim, kamala erdim,
Elə sevdalandım, meylimi verdim.
Oğul, nə gördümsə, mən eldən gördüm,
Dosta uzadılan ələ kəm baxma.

Dostlarımın ərki-nazı ol oğul,
Məclislərin söhbət-sözü ol oğul,
Gəl İslamın çalan sazı ol oğul,
Saza, təzanəyə, telə kəm baxma.

**SIZLARAM**
(İğdırda bir məclisdə bədahətən söylənmiş)

Taleh saldı qürbət elə yolumu,
Ayrı düşdüm nazlı yardan, sızlaram.
Hər sözümü bəyan etməm aşkara,
İçimə dərd olan sırdan sızlaram.

Qanmazın bildiyi kamilə uymaz,
Cahili dindirmə beyhudə, dəyməz.
Fələk mətləbimə erməyə qoymaz,
Pünhan baxar bir kənardan, sızlaram.

İslam deyər, varı olan ucalır,
Anlamayan əbəs yerə qocalır.
Qəribin, yoxsulun halı necolur,
Mən də yoxsul qaldım vardan, sızlaram.

## SƏNİ

Ey canım cananı, ruhum didarı,
Nə gözəl yaratmış yaradan səni.
Boş dünyanın türlü-türlü halı var,
O mövlam saxlasın bəladan səni.

Görən igidlərin təbdili çaşar,
Bu qiblədə olmaz insanat, bəşər,
Gözəllik odası sənə yaraşar,
O xuda seçməsin sıradan səni.

Əxlaqın gözəldir, kamalın lətif,
Məramın, mətləbin mənzilə yetif,
Aşıq İslam haqqın yolunu tutuf,
Kimsə ayıramaz buradan səni.

## OLMADI

Əbəs keçdi, yazıq oldu ömür-gün,
Oyaq bəxtim, kəskin sözüm olmadı.
Düşdüm hiylə ilə şər tuzağına,
Qış fəsli bitmədi, yazım olmadı.

Fələklə cəng etdim, düşdüm, yoruldum,
Rüzgarlarda saman oldum, sovruldum,
Özüm öz yağımla yandım, qovruldum,
Heç bir dosta ərki-nazım olmadı.

Aşıq İslam, həsrətimə qovuşdum,
Bir az dünya gəzdim, bir az dolaşdım.
Ələ aldım, qələmimlə savaşdım,

Bu dünya varında gözüm olmadı.

## SƏNİNNƏN

Beyilqarsan, beyinsafsan, beyvəfa,
Kimsə çıxmaz dünya, başa səninnən.
Gələn gedər, gedən gəlməz bir daha,
Cəng etdi çox bəylər, paşa səninnən.

Bir çox kimsələrə geydirdin tacı,
Neçə zalımlardan aldın xəracı.
Şəkərdən şirinsən, zəhərdən acı,
Kimsə bacarammaz haşa, səninnən.

Həm dərinə, həm dayaza enərsən,
Yer altında bir öküzə minərsən.
Aşıq İslam deyər, hızla dönərsən,
Kimsənin həddi yox qoşa səninnən.

## OLUR

Hər şey adil olsa, ədalət olsa,
O zaman ortalıq sükunət olur.
Əgər qan əmənlər yox edilərsə,
Hər kəs rahat olur, səlamət olur.

Haqsızların qafaları əzilsə,
Zorbaların qəbirləri qazılsa,
Davalıya doğru dərman yazılsa,
Xəstələr qurtulur, fərağat olur.

"Bu gün get, yarın gəl" gün verənlərin,
Rüşvət niyyətiylə yön verənlərin,
Zalıma, zülümə ün verənlərin,
Zavalı tez gəlir, hüsumət olur.

Tüm vergilər fağırlardan alınmaz,
Haramxorlar yeyib-içib salınmaz.
Kredilər zənginlərə verilməz,
Zülümkar zalımlar bəlkə mat olur.

Talan olub xəzinənin yarısı,
Mücövhər takmayır qızı-qarısı.
Sümüyə hürüyən köpək sürüsü,
Haqqı bilməyənlər mazarrat olur.

Bəlası yetişməz qullar olmasa,
Dairədə çox iş yanar bimasa.
Yazıq Aşıq İslam bunu yazmasa,
Bu cənnət vətənə xəyanət olur.

## YARIMÇIX
(Yedəkli qoşma)

Qanana-qanmaza sözümüz yoxdu,
Tez düşsün ömrünə talan, yarımçıx.
Nə söz dinlər, nə söhbətdən qanarsan,
Oysun gözlərini ilan, yarımçıx.

İlanın ağzında vardır zəhrimar,
Zəhrimara zidd yaranıb panzəhər.
Yaradan evini etsin tarü-mar,
Heç qarnın doymasın, dilən, yarımçıx.

Dilənən bir kimsə hər kəsə ayan,
Açıqdı sözlərim bəyana bəyan.
Cötəh ata minsin, özün qal yayan,
Boşuna dünyayı dolan, yarımçıx.

Dolan gəl dünyayı, üzün gülməsin,
Elə bir dərdə düş, kimsə bilməsin.
Təbiblər dərdinə dərman bulmasın,
Cəhənnəm oduna qalan, yarımçıx.

Dölün vələdizzina, özün mazarrat,
Sana zülm etsin ol qəni qüdrət.
Karslı Aşıq İslam versin məlumat,
Aləmə rəzalət olan yarımçıx.

## GEDƏR

Şeytanın şərinə meyil verənlər,
Ya həbsə, ya da ki məzara gedər.
Əvvəl öznə düşman, sonra peşmandır,
Düşər dərdə-qəmə, azara gedər.

Arxalanma, arxa olmaz hər kişi,
Dar günündə ortaq olar ər kişi.
İki gözəlliyə yetən bir kişi,
Həmən gözə gəlir, nazara gedər.

Aşıq İslam, təbdil oldu zamanlar,
Mənim sözlərimi ariflər anlar.
Haramdan toplayıb, dövlət yapanlar,
Uzaq çəkməz, bir gün zarara gedər.

## DÜNYANIN
(Məzar daşına yazılı olan şeir)

Olmadısa səxavətin, hörmətin,
Nəyə yarar sərvət-malı dünyanın.
Bir gün bitər ömür denən müddətin,
Əzəldən belədi halı dünyanın.

İstər ye-iç dolan, istər oyalan,
Varmı bu dünyaya gəlib də qalan?
Şan-şöhrət də yalan, sərvət də yalan,
Dünyada qalacaq malı dünyanın.

Nə incit, nə ağlat, nə də ağlama,
Qəm-yasa batıb da, qara bağlama,
Zalımlıq eyləyib, sinə dağlama,
Tükənməz fitnəsi, feli dünyanın.

Nə nökər, nə ağa, nə bəy, nə paşa,
Kimsə yetirmədi ömrünü başa.
İslamın da adı yazılar daşa,
Bilinməz ərkanı, yolu dünyanın.

**ÇILDIRDA**
(Aşıq Şenliyə ithaf)

Güz olanda sıcaq yerə çəkilir,
Durnaları qatar-qatar Çıldırda.
Qüdrətdən qaynaqlı göl kənarında,
Sonaları suda ötər Çıldırda.

Gözəllərin qələm oynar qaşında,
Sevdalılar gəzər həm təlaşında.
Əhli-dillər sədirlərin başında,
Mücövhərli matah satar Çıldırda.

İgidləri sevər əhli-hünəri,
Bütün sakinləri qonaqpərvəri.
Sədəfli sazların xoş nəğmələri,
Min çeşid ahənglə ötər Çıldırda.

Qüdrətdən dərs verib şahların şahı,
Dilində əzbərdi Qadir İlahi.
Qoca Aşıq Şenlik, o böyük dahi,
Yaslanıb bağrına yatar Çıldırda.

Çox sevər Çıldır xalqı nasını,
Şəm odunda yaxar pərvanəsini.
Karslı Aşıq İslam dürdanəsini,
Qoyar tərəziyə, satar Çıldırda.

## GƏLİN

İğdır qəzasında səni sevmişəm,
Gəl eyləmə mənə naz, gedən gəlin.
Səndən özgə çox gözəllər görmüşəm,
Bulunar əmsalın az, gedən gəlin.

Ağlım başdan çıxıb, olmuşam dəli,
Yanıram oduna səni görəli.
Bir neçə sözüm var sənə deməli,
Ömür dəftərinə yaz, gedən gəlin.

Zümrüd xoşdur, amma almaza gəlməz,
Yaqutun yerini heç biri verməz.
Kim deyir ki, gəlin qıza toy olmaz,
Qurban sənə on beş qız, gedən gəlin.

Mailəm dilbərim, uca boyuna,
Gözəl əxlaqına, gözəl xoyuna.
Bu xəstə İslamı alsan qoynuna,
Bil ki, şəfa bular tez, gedən gəlin.

## AŞIQ ŞENLİK DƏDƏYƏ

Xoş zamanda xoş yaradıb İlahi,
Şad edərdin sadiq yaranı Şenlik.
Nur aləmi olsun evgahın, yerin,
Salavat zikirli, nurani Şenlik.

Ünnü bir kişiydin, isim almışdın,
Qırxlar məclisindən kürsün almışdın,
Elm dəryasından dərsin almışdın,
Əzbərə oxurdun Quranı Şenlik.

Aşıq İslam, dəhrin əfkar qəmində,
Ömrü keçdi dünya sərəncamında,
Kəşt-güzar eylədin ən son dəmində,
Gəzdin Azərbaycan, İranı Şenlik.

## DÜNYADA

Zülüm çəkdi, zindanlarda yaşadı,
Baharını duman sardı dünyada.
Aciz, fağır, məzlum bir gün görmədi,
Neçələri dövran sürdü dünyada.

Gül çağırır bülbül, dala gətirir,
İşvə-nazı qalmağala gətirir.

Haq söyləmək min bir bəla gətirir,
Bilinməz nə sual, sirdi dünyada.

Yarı yaşa gəldi, ömrü kəm oldu,
Otuzu keçmədən vaxtsız qocaldı.
Qədər-qismətiylə baş-başa qaldı,
Çəkdicəyi boran-qardı dünyada.

Şair cövhər satar xəzinəsindən,
Aşıq söhbət açar sazın səsindən,
Bülbül bir ay oxur gül həvəsindən,
On bir ay başına dardı dünyada.

İslam zara gəldi haqsız əlindən,
Ömrü hədər oldu haqsız əlindən,
Saralıban soldu haqsız əlindən,
Zalımın zülmünü gördü dünyada.

**OLMAZ**

Namərd, gərrah olma dünya varına,
Şeytani qürurla mətanət olmaz.
Mərd igidin namı qalır dünyada,
Namərd bir kişidə mərifət olmaz.

Kişi namusunu yeldən qısqanır,
Afətdən qısqanır, seldən qısqanır,
Çox hərzə söyləyən dildən qısqanır,
Namus heç kimsəyə əmanət olmaz.

Aşıq İslam, yatma, qəflətdən oyan,
Oynat qələmini, qaynasın sinən.
Haq bir sözü hər bir üzə deməyən,
Qorxaq olur, onda cəsarət olmaz.

**HƏVƏS EYLƏR**

Gözəl yaz ayları qeyzə gələndə,
Çalxanar sonalar, göl həvəs eylər.
Həftə gülər, aylar gülər, il gülər,
Əsər səhralarda yel, həvəs eylər.

Səadət var-qiymət verməz axçaya,
Keçər ətəyindən, baxar dağ çaya.
Müdam mübtəladı bağa-baxçaya,
Bülbül oxuyanda gül həvəs eylər.

Səyyah uca dağlar aşıb gələndə,

Arzusuna yetib, başa gələndə,
Hər dərədən aşıb coşa gələndə,
Döyər yarğanları sel, həvəs eylər.

Qədəm qoy sinəmə, gözün süz bəri,
Çalxanıb silkinmə sonam, üz bəri.
Həsrət intizarı alar yüz bəri,
Tərpənər dəhanda dil, həvəs eylər.

Yar meyil eyliyər yarına doğru,
Axan sular axar yarına doğru.
Kəsdirir mənzili yarına doğru,
Minər eşq atına, yol həvəs eylər.

Bülbül yada salar baxça-bağ səsi,
Qaynar sinəsində düyün-dağ səsi.
Təzanəyə ilham verir nəğməsi,
Dəyib toxunanda tel, həvəs eylər.

Xoş sədayla müjdələnir qulaqlar,
Dillə vəsfə gəlməz gözəl yaylaqlar.
Lalə-nərgiz, abu-kövsər bulaqlar,
Sürər dövranını, el həvəs eylər.

Qədəm basıb bizə gələ gözəl yar,
Sinəm hicranını təbib, gözəl yar.
İslam deyər, gözəl yarsan, gözəl yar,
Geyinəndə yaşıl, al həvəs eylər.

## ÇILDIRDA

Sərhat Karsımızın göl kənarını,
Durnalar dövr eylər, ötər Çıldırda.
Yaşıl yaylaların ovalarında,
Süsən sümbül, güllər bitər Çıldırda.

Lilparlı suları kövsər bulağı,
Vəsfi mümkün deyil eli, oymağı.
Çox əziz tutarlar gələn qonağı,
Hörməti, rəğbəti artar Çıldırda.

Sözlərini bitir, uzatma dahi,
Əlif Allah, mim Məhəmməd pənahı,
Aşıq Şenlik kimi bir böyük dahi,
Söykənif bağrına, yatar Çıldırda.

Cənnətə bənzədir bahar çağını,
Unudar dünyanın qəm marağını.

Hər kim gəzər isə el-oymağını,
İlhamına qüvvət qatar Çıldırda.

Könül mübtəladı xanumanlara,
Sazımdan, sözümdən kam alanlara.
Karslı Aşıq İslam əhl-irfanlara,
Gedər mətahını satar Çıldırda.

**OLURSAN**

Hirs daşanda ocaqları söndürür,
O anda sən sənə düşmən olursan.
Səbr etməsən gözlərini döndürür,
Keçən keçər, sonra peşman olursan.

Namus-qeyrət gözlə, az arı gözlə,
Qəmə həmdəm olma, azarı gözlə.
Sonunda ölüm var, məzarı gözlə,
Gün təki dağları aşan olursan.

Gözəl əxlaqı sev, sanaat eylə,
Sadiq dostu dosta amanat eylə,
Haqqına razı ol, qənaət eylə,
İki yana baxma, şaşan olursan.

Hanı Loğman həkim, hanı Əflatun,
Gün gəlir, qayb olur sənin həyatın.
Konuşmaq gümüşdür, dinləmək altun,
Bulanıq çay kimi daşan olursan.

Çirkini gözləmə, ara gözəl, sev,
Ala gözlü, qaşı qara gözəl sev,
Gözəl yarı gözəl ara, gözəl sev,
Açılan gül kimi solan olursan.

Yetər Aşıq İslam, xəyala dalma,
Tükədib ömrünü, saralıb solma.
Aman, sən namərdə gəl hədəf olma,
Bal pətəyi kimi şan-şan olursan.

**YARIM**

Bu aləmə sənin gözünlə baxdım,
Sakın, sən eyləmə bəhanə, yarım.
Həp səninən oldu iqrarım-əhdim,
Arzun nədi söylə, daha nə, yarım?

Gözəl yaranıfsan gözəllər şahı,
Yandım həsrətindən, çəkərəm ahı.
Almaram nəzərə o bədir mahı,

Əmsalın bulunmaz şahanə yarım.

Mənim üçün Loğman, Əflatun sənsən,
Mələk misallısan, bir xatun sənsən.
Aşıq İslam deyər, həyatım sənsən,
Sənsiz qiymət vermən cahana, yarım.

**TÜRKLƏRİN**

Pərdə arxasında fitnə cambazlar,
Yox cahanda bir əmsalı Türklərin.
Kışqırtıcı, hiyləkar hoqqabazlar,
Cavab istər hər sualı Türklərin.

Çelikdir biləyi, comərtdir əli,
Aşınmaz çelikdən tökmüş təməli.
Həm cahanda, həm yurtda sülh əməli,
Böylədir fikir-xəyalı Türklərin.

İxtilaflar bunları görmədimi,
Hesab sorub çoxunu qırmadımı,
Şamarını tərsinə vurmadımı,
Qazi Mustafa Kamalı Türklərin.

Aslanı, qaplanı, qurdu dahidir,
Ordusu dahidir, yurdu dahidir.
Cahangirdir, hər bir fərdi dahidir,
Həm şahini, həm qartalı Türklərin.

Şımarma ey düşmən, ağlın şaşmasın,
Şimşəklər çaxınca göz qamaşmasın.
Aman, Türklərin səbri daşmasın,
Yaman olur qalmağalı Türklərin.

Heybətlə şahlansa kainat şaşar,
Əjdəha misallı dağları aşar.
Dahilər yurdunda aslanlar yaşar,
Başa gəlməz qeylü-qalı Türklərin.

Yeyin, tükənsin xəyal plovları,
Kimsə yara bilməz çelik surları.
Yobaz, küstax erməni dığaları,
Olursun köləsi, qulu Türklərin.

Dahi ata ordusunu qaldırdı,
İrəli marş! Dedi, əmrin bildirdi.
Neçə küstaxları boğdu, öldürdü
Ağ dənizi, həm də gölü Türklərin.

O Haqqın qüdrət-qüvvəti Türklədi,
İnayəti, mürüvvəti Türklədi,
Sərhat Karslı Aşıq İslam kükrədi,
Bölünməz, bütündür malı Türklərin.

## GƏRAYLILAR

### OLMADI

Hər kim ilə dost oldumsa,
İlqarında düz olmadı.
Çox hörmətlər etdim isə,
Əkməyimdə duz olmadı.

Təbiblər yara saranda,
Gəzdilər dağda, aranda.
Ömrüm keçdi qar-boranda,
Getmədi qış, yaz olmadı.

Aşıq İslam, candan bezdim,
Seyraqıfdan hiylə sezdim.
Doğru oldum, doğru gəzdim,
İllah işim saz olmadı.

### SÖYLƏ

Mənim gözəl yarım nədir,
Söylə işvə-nazım, söylə.
O gül camalındı bədir,
Söylə xoş avazım, söylə.

Bu ruhumun səmasısan,
Mələklərin timsalısan.
Bahar-yazın əmsalısan,
Söylə bahar-yazım, söylə.

İgidin qeylü-qalını,
Sevmə dünyanın malını.
Karslı İslamın halını,
Söylə quba-qazım, söylə.

### NEYLƏSİN

Qoca bağban bağ barını
Dərə bilmədi, neyləsin?
Fani dünya səfasını
Sürə bilmədi, neyləsin?

Gözəldi dostum karını,
Unutmadı ilqarını.
Ovçu oldu, şikarını
Vura bilmədi, neyləsin?

Sevdi qaşı qarasını,
Bulamadı çarasını.
Cərrah, təbib yarasını
Sara bilmədi, neyləsin?

Dost ona qurdu tuzağı,
Keçdi bu İslamın çağı.
Fərhad kimi qoca dağı
Yara bilmədi, neyləsin?

**DÜNYA**

Səndə heç vəfa görmədim,
Həddən aşıf xatan dünya.
Heç iqrarında durmadın,
Həya elə, utan dünya.

Həm şirinsən, həm də xassan,
Heç kimsədə yoxdu hissən.
Duyğulanıf acımazsan,
Yoxdu anan-atan dünya.

Bilməm nədir səndə qayə,
Adətin belədir niyə?
Aslanı qurnaz tülküyə
Bazarlıqsız satan dünya.

Necə gəlif, elə durur,
Durnayı gözünnən vurur.
Karvan-karvan insan qırır,
Nə qoşufsan kotan, dünya?

Qorxmadan çəkirsən nərə,
Baxar, çıxarsan kənara.
İslamı qəmə, əfkara
Qaldırıban atan dünya.

**AX BU DÜNYA**

Yazıx ömrümü tükətdi,
Ax bu dünya, ax bu dünya.
Mənə qəsdi-qərəz etdi,
Ax bu dünya, ax bu dünya.

Yüzdə doxsan doqquz matəm,
Bu fanidə əmanətəm.
Qoymadı arzuma yetəm,
Ax bu dünya, ax bu dünya.

İşi-gücü qeylü-qaldı,
Cəng ilə intiqam aldı.
Məni imtahana saldı,
Ax bu dünya, ax bu dünya.

İnsafsız insaf etmədi,
Gücünə gücüm yetmədi.
Çiləli günlər bitmədi,
Ax bu dünya, ax bu dünya.

Mənbəyidir hiylə-şərin,
Yatağıdı qəm-kədərin.
Həm acıdı, həm də şirin,
Ax bu dünya, ax bu dünya.

Bir gün uğramaz bazara,
Heç kimi almaz nazara.
Bir gün göndərir məzara,
Ax bu dünya, ax bu dünya.

İslamam deyim adımı,
Kimsə duymaz fəryadımı.
Qırdı qolum-qanadımı,
Ax bu dünya, ax bu dünya.

**İÇİNDƏ**

Hər xoruz öz küllüyündə,
Ötər, gəzər kül içində.
Ataların bir sözü var,
El içində, öl içində.

Tərlan ov arar təlaşlı,
Həmi qeyrətli, ataşlı.
Uçar gedər yaşıl başlı,
Sona üzər göl içində.

Sənə etməsin qəsdini,
Gözəl işin irastını.
Aşıq İslam bir dostunu
Öyütlədi yol içində.

**TÜRKÜNDÜR**

Başdan-başa Türklə dolu
Bu cənnət vətən Türkündür.
Əmr eylədi dahi ata,
Bölünməz bir bütündür.

Səltənət dövrü pozuldu,

Altun qələmlə yazıldı.
Düşmənə məzar qazıldı,
Böyük bir adil hökmdür.

Yürü istiqlal peşinə,
Bu gözəl vətən eşqinə.
Qəhbə düşmanlar başına
Cahanı tərsinə döndür.

İnsan üstü bu mətanət,
Bu güclü qüdrət, bu qüvvət.
Elan oldu Cümhuriyyət,
Bundan böylə hər kəs hürdür.

Sən haqqına olma asi,
Varmı sözümün xatası?
Xain düşmənin cəzası
Ya ölümdür, ya sürgündür.

Pozqunluq salanı görsən,
Hiyleyi-yalanı görsən,
Zəhərli ilanı görsən,
Əz başını, həmən öldür.

Al bayraq üstündə hilal,
Get mürşidindən ilham al.
O marşal Mustafa Kamal
Cahanda tək cahangirdir.

İtalyan, ingilisləri,
Dəf etdi fransızları.
Yunana vurdu şamarı,
Dənizə tökdüyü gündür.

Sənə dost olur özündən,
Qoyma vətəni gözündən.
Ayrılma ata izindən,
Bu yol doğru gedən yoldur.

Haqlıdır haqqına tapan,
Nəhayət, güldü bu vətən.
Bütün bu hünəri yapan
Damarındakı əsil qandır.

Sözümü eylədim tamam,
Nur içində yatsın atam.
Sərhat Karslı Aşıq İslam,
Cənnət vətənə mehmandır.

# TƏCNİSLƏR

## YAR İNDİ

Siyah zülflərin tel-tel olufdu,
Yaraşıb kirpiklər gözə yar indi.
Hilal qaşlar mənim ağlım alıbdı,
Sürmə çəkib qaşa, gözə yar indi.

Atəşindən düşdüm nara sevdiyim,
Yandırma cismimi nara sevdiyim.
Müştağam qoynunda nara sevdiyim,
Bir açıb göstərsən gözə yar indi.

İslam der; gözlərin yada baxdıysa,
Mənnən qeyri gəzib, yada baxdıysa,
Yarı tərk eyləyib, yada baxdıysa,
Bir daha görünməz gözə yar indi.

## ZAMANA

Tarixin təkəri tərsinə döndü,
Keçən günlərini andı zamana.
Aşıq deyər zamana,
Kötü gəldi zamana.
Ortalıqda kriz var,
Zam zam üstdə zamana.
Əvvəldən də hüzurumuz yox idi,
Necə ki tərsinə döndü zamana.

Ölən olsün, qalan qalsın, mənə nə?
İstər alsın, istər satsın, mənə nə?
Aşıq deyər mənə nə?
Kədərim yox, mənə nə?
Dərtli dərdin düşünsün,
Dərdim yoxdu, mənə nə?
Gözəl bir gəminin oldum kaptanı,
Mənim üçün şərəf-şandı zamana.

Aşıq İslam, çıxarçıya pay vermə,
Qazancını tut əlində, say vermə.
Aşıq deyər say vermə,
At oxunu, say vermə.
Aman, düzənbazlara,
Sakın, sakın oy vermə.
Əhliyətsiz, ellər, iş başındadı,
Fağır-füqəralar yandı zamana.

## DAĞLARDA

Yazın əzəl ayı qeyzə gələndə,
Yağış yağar, qarğın salar dağlarda.
Aşıq deyər dağlarda,
Səyyah gəzər dağlarda.
Yaz gələndə el çıxar,
Seyran eylər dağlarda.
El qayıdar aranlara çəkilər,
Hisarlı qayalar qalar dağlarda.

Sərin yellər əsər, səhraya dəyər,
Çiçəklər reyhası səhraya dəyər.
Aşıq, səhraya dəyər,
Sərin səhraya dəyər.
İlk səhərin ziyası,
Çıxar səhraya dəyər.
Leylinin həyatı səhraya dəyər,
Həsrət intizarnı alar dağlarda.

İgid gəzər, qalxan-qılınc, at alar,
Tarixlərdə yazılıdı atalar.
Aşıq deyər atalar,
Gəldi keçdi atalar.
İgidin qaydasıdı,
Çatal dilli at alar.
Ərdənər der; istedadlı atalar,
Cəngi-cidal qılınc çalar dağlarda.

## YAR DEMƏ

Nəsihət eylərəm divanə könül,
Vəfası olmayan yara yar demə.
Mən aşiqəm, yar demə,
Biilqara yar demə.
Mənsur tək dara çəkil,
Sitəmkara yar demə.
Dərdə dərman olmaz naşı təbibdən,
Dəvası olmayan yara yar demə.

Süsən yarım, sümbül yarım, gül yarım,
Şirin söhbət eylə, danış, gül yarım.
Mən aşığam, gül yarım,
Lalə yarım, gül yarım.
Gəl bağa bağban olaq,
Mən bülbül, sən gül yarım.
Şölə salıb camalına gül, yarım,

Səfası olmayan yara yar demə.

Mehman ol yar, otağımda qal indi,
Mənzilə yetişdin, məskən sal indi.
Mən aşığam, al indi,
Al yanağın al indi.
Ağ qaradan yaxşıdı,
Tər bənövşə al indi.
İslam deyər, şirin canım al indi,
Cəfası olmayan yara yar demə.

## DİVANİLƏR

### GÖRMƏDİM...

Ey fələk sənin əlindən fərah bulan görmədim,
Qəhır qəzəbdən göz açıb murad alan görmədim.
Ən sonunda əcəl atı bir gün gəlir qapıya,
Karvan-karvan gəlir keçər səndə galan görmədim.

Görmədim bu dəhr-içində haldan razı olanı,
Ari kimi bal becərib baldan razı olanı.
Nə qədərdən nə qısməttən quldan razı olanı,
Zulmilə ömür geçirib yaşın silən görmədim.

Aşıq İslam, düşürdün dəhrin intiqamına,
Hicran-möhnət girdabına, behrin intiqamına,
Həmi gərəz, həmi gəzab, qəhrin intiqamına,
Bu fanidə səfa sürüf irşad olan görmədim.

### YARADAN

Yeri-göyü, ərşi-gürşü, ümmanları yaradan,
Eşqin ilə zikrullaha dalanları yaradan.
Məni eldən, eli məndən uzaq etmə dünyada,
Gündə beş vaxt namazını qılanları yaradan.

Sən yaratdın, el ucaltdı, dastan oldum dillərə,
O Şenliyi nəqş elədim könüldən könüllərə.
Arzum budur miras qalsın nəsildən nəsillərə,
Qətrələrdən ümman kimi dolanları yaradan.

Özüm ölsəm adım ölməz, sürər gedər hər zaman,
Mənim elim vəfalıdı, yad eyləyər bir zaman.
Aşıq İslam ölür gedər, bəlli olmaz yer-məkan,
Qonşu eylə savabı çox olanları yaradan.

### BİZİM

Vətən bizim, bayraq bizim, qürbət bizim, el bizim,
Ədəb bizim, ərkan bizim, doğru-dürüst yol bizim.
Ədirnədən Ərdahana bu vətən torpağında,
Al bayrağın kölgəsində qonuşulan dil bizim.

Ot kökünün üzərində bitər demiş atalar,
İnşallah, bir gün gəlir, düzəldilir xatalar.
Arzum budur gənclərimiz nəsihəti tutalar,
Bərəkətdən aşar-coşar, para bizim, pul bizim.

Aşıq İslam öyüd verir, istərəm həp dürüst ol,
Sən bir əhli-dil oğulsan, əhli-dilsən, öylə qal.
Sazı al sinən üstünə, həmi söylə, həmi çal,
Sədəfli saz, ey təzanə, nəğmə çalan tel bizim.

**DÜNYADA**

Mərd olan namərd önündə dizə çökməz dünyada,
Bu günü yarına qoyub, ömür sökməz dünyada.
Əsər buraxır aləmdə, söylənir hər hünəri,
Fanidən gedər axrətə, sözü bitməz dünyada.

Ağzının ləzzəti olur aşını bilən kişi,
Dünya qəhrini çəkərmi işini bilən kişi.
Dostlarına hörmət edib eşini bilən kişi,
İqrarında sabit olur, cəfa çəkməz dünyada.

Kişi olan kişi kimi söylər, gülər mərdinən,
Mövlasına yön çevirir, dilək dilər mərdinən,
Aşıq İslam ölür isə, ölür gedər mərdinən,
Müxənnətin tarlasına ağac dikməz dünyada.

**GƏLƏN**

Halıma rəhm eyləyib, dərdə dərmandı gələn,
Mənim bu sınıq könlümə məlhəm sarandı gələn.
Səxavətdə Hatəm-Tayi kimsə tutan olmadı,
Çün eşidib dar günümü, yola rəvandır gələn.

Ağıl yetməz ol mövlanın əlifinə, sininə,
Cümlə yaranan möhtacdı aləmin Rəbbisinə.
Əzəl Allah, gümanım var Nəbilər Nəbisinə,
Hümmətinə imdad üçün əziz yarandır gələn.

Nə ölçüdə, biləmmədim bu eşqin həvəsini,
Sayla təslim edib mövlam hər qulun nəfəsini.
Aşıq İslam, belə gördüm dünyanın vəfasını,
Aqibət ömür şəhrinə tüpü borandır gələn.

**HƏCV – DAŞLAMA**

Xırsızların qolun kəsin, atın qaranlıq zindana,
Doğru-dürüst hizmət olsun bu cənnət yurda, vatana.
Barajlardan sulayalım bağrı yanıq tarlaları,
Fidan əkəlim dağlara, çoxaltalım ormanları.
Heyvançılıq yetişdirən yörələrə əyiləlim,
Milli gəlirə göz yumub, nəmə lazım demiyəlim.
Doğuda səkkiz ay südlər durmaz axar nehir kimi,

Nə yazıq dəyərlənmiyor, tökülüyor zəhər kimi.
Kars elinin yağ-pendirin Türkiyə tükətməz, artar,
Arta qalan mamülləri bir qonşu dövlətə satar.
Kalkınır bu yurd, bu vatan, cənnət olur hər bir tərəf,
Şadlıqlar-şənliklər olur, dolar bu yurda şan-şərəf.
Saxta doktoru öldürün, yırtın yakın reçətəsin,
Doğru bir reçətə yazın, xəstələr qurtulsun gəzsin.
Savunmayın bu düzəni, qalmasın atıb-tutana,
Günəş doğsun, nurlar saçsın bu gözəl cənnət vatana.
Ayıb olsun şu tarixə, təkərləyi doğru dönsün,
Zülüm edən zalimlərin yetər, çıraları sönsün.
Kədər getsin qəlbimizdən, könlümüz nəşəylə dolsun,
Sevinsin səbi-sübyanlar, anaların üzü gülsün.
Gəlişmiş ölkələr kimi biz də gedəlim irəli,
Gerilərdə buraxalım artıq qaranlıq günləri.
Oxuyanlar haq verirlər bu aciz yazılarıma,
Nasırlı əllərimə, qolumun bazularına.
Alnımızdan tər tökülür, axşamadək çalışırız,
Əlimizdən çıxar deyə, əkməymizlə yarışırız.
Təfəçilər, qan əmənlər gəlir girərlər araya,
Çarə yoxdur, çarə olmaz məlhəmsiz qalan yaraya,
Sömürənə dur deyən yox, həmi də niyə desin ki?
Çünki, yetər, dur der isə, kəndiləri nə yesin ki?
Namussuzlar dinləməzlər namusludan doğru sözü,
Sömürüb yeyirlər fağırı başda duranların özü.
Tökün bunların gözünə kəzzab suyu, ya da asit,
Yetər, bir az insaf edin, qəhr ol imperialist faşist.
Tarix baxıb utanmazmı bu kimi rəzalətlərə,
Bu safsata, aciz düzən qarşıdır əzəmətlərə.
Zülmün sahibi zalımdır, məzlum sahibi məbuddur,
Karslı İslam doğru söylər, vətən sevməyən tabutdur.

## DEYİŞMƏLƏR

### AŞIQ İSLAMLA HÜSEYN SARAÇLININ DEYİŞMƏSİ*

İslam Ərdənər:
Cəbrin zindanında zəri-dəst olan,
Çarxın çəpərindən kecməyən bilməz.
Yetən olmaz ol mövlanın sirrinə,
Fanidən baqiyə kecməyən bilməz.
Hüseyn Saraçlı:
Kim deyər şirindi, kim deyər acı,
Eşqin badəsini icməyən bilməz,
Kim deyər asandı, kim deyər çətin,
Ustad kürəsində bişməyən bilməz.
İslam Ərdənər:
Mətanət, mərifət var meydanında,
Rəqibin köksünü gör meydanında,
Kükrər, nərə atar nər meydanında,
Bəhri-ümman kimi coşmayan bilməz.
Hüseyn Saraçlı:
Halal , haram Quranda var, ayədə,
Halal itər, haram olsa mayada,
Tərəqqiynən səfa sürüb dünyada,
Sonra tənəzzülə düşməyən bilməz.
İslam Ərdənər:
Aşıq İslam sevər mahi-tabanı,
Gəşt eyləyər bərri çöl-biyabanı,
Mənim dərdli sinəmdəki yaranı,
Əl atıb neştərnən deşməyən bilməz,
Hüseyn Saraçlı:
Saraçlı Hüseynəm, ellər tanıyır,
Fələk günümüzü bir-bir sanayır,
Dərdimənd görəndə gəlbim ganıyır,
Sənət qapısını açmayan bilməz.

---

*Ustad Hüseyn Saraçlının şəxsi arxivində olan bu şerin sərlövhəsi belədir: “Türk aşığı ladiqarstanlı İslamla deyişmə”.

### OĞLU MUSA ƏRDƏNƏR İLƏ DEYİŞMƏLƏR
(Oğlu Musa əsgər olduğunda yazıldı)

**YAZERAM**

Aşıq İslam:
Mənim həsrət balam, gözümün nuru,
Elə qanma sənə dastan yazeram.
Dilimin əzbəri, qəlbim süruru,
Sərhət vilayəti, Karsdan yazeram.

Oğlu Musa:
Dizimin taqəti, vəfalı babam,
Mən də cavabımı kursdan* yazeram.
Könlüm əfkarlıdır, çox hüzünlüyəm,
Sinəmdə qaynayan hirsdən yazeram.

Aşıq İslam:
Türk oğlunun özü-sözü türkcədir,
Səs-sədası, xoş avazı türkcədir,
Sana göndərdiyim yazı türkcədir,
Nə ərəbi, nə də farsdan yazeram.

*Kurs-məslək, eyitim

Oğlu Musa:
Türk oğluyam, özüm-sözüm doğrudur,
Sinəmdə qaynayan közüm doğrudur,
Kutsal bir yoldayam, izim doğrudur,
İçərimdən gələn səsdən yazeram.

Aşıq İslam:
Baban sənin kimi cana qurbandır,
Damarında asıl qana qurbandır,
Karslı Aşıq İslam sana qurbandır,
Sana qarşı bu həvəsdən yazeram.

Oğlu Musa:
Qoca babasına qurbandı Musa,
Ayrılalı xeyli zamandı Musa,
Vatana əsgərdi, cavandı Musa,
Babamdan aldığım dərsdən yazeram.

Aşıq İslamın böyük oğlu Musa gənc yaşında Ankarada işə başlar və orada qalar. Zaman-zaman məktub yazaraq hal-əhval edərlər. Məktub yazılanda şeir də yazılır. Bir dəfəsində Musa yazar ki, baba, məni gözdən salıfsan deyəsən. Ona görə Aşıq İslam məktub yazar, ama şeir də yazar. Musa da ona cavab yazar:

Aşıq İslam:
Olmaynan əfkarlı-qəmli,

Gözüm balam, gözümdəsən.
Hər vaxtda, hər saatda,
Əziz balam, gözümdəsən.

Oğlu Musa:
Bu dünyada varım-yoxum,
Mənim iki gözüm sənsən.
Bəzən şiddətli şitasan,
Mənim bahar-yazım sənsən.

Aşıq İslam:
Deyintisiz dil olarmı,
Gərgədannan fil olarmı,
Heç xatasız qul olarmı,
Gözüm balam, gözümdəsən.

Oğlu Musa:
Mən ki səndən öyüd aldım,
Neçə xəyallara daldım,
Sədəfli sazını çaldım,
Mənim xoş avazım sənsən.

Aşıq İslam:
Yeri olmaz naxələfin,
Hörməti var qəlbi safın.
Rəqibiyəm mən xilafın,
Əziz balam, gözümdəsən.

Oğlu Musa:
Xəyalım qəmə dalanda,
Könlümü əfkar alanda,
Qarda-boranda qalanda,
Mənim odum-közüm sənsən.

Aşıq İslam:
Mərdin alınmaz qalası,
Deyiləm var mübtəlası.
Atanın əziz balası,
Gözüm balam, gözümdəsən.

Oğlu Musa:
Ölkəmizdə bir kişisən,
Məclislərdə ər kişisən.
Hər yerdə öndər kişisən,

Mənim yolum-izim sənsən.

Aşıq İslam:
Mənada zərrafam, zərəm,
Sadiq dosta sadiq yaram,
İslam deyər bəxtiyaram,
Əziz balam, gözümdəsən.

Oğlu Musa:
Etibar eyləmə puşda,
Əməyin qalmasın boşda.
Musa balanı bağışda,
Mənim ərki-nazım sənsən.

**YOXDU**
Musa:
Baba, buralara qürbət deyillər,
Hər gün ağlayıram, güldüyüm yoxdu.
İnan ki, didə giryan olmuşam,
Gözlərim yaşını sildiyim yoxdu.

Aşıq İslam:
Qürbətin qəhrini çox çəhdim oğul,
O ellərdə heç şad olduğum yoxdu.
Dediyin yerləri gəzib görmədim,
Bilmirəm, o yana getdiyim yoxdu.

Musa:
Burda dözməlisən hər türlü dərdə,
Gecədə, gündüzdə, həmi səhərdə.
Uyuşub qalırsan yatdığın yerdə,
Mən burda heç röya gördüyüm yoxdu.

Aşıq İslam:
Burda boran əsir, yamandı şita,
Diqqət eləməzsən, götürməz xata.
Dondurub son verər gözəl həyata,
Tamamən boranda qaldığım yoxdu.

Musa:
Biz həsrət qalmışıq söhbətə-sözə,
Nə qış qışa bənzər, nə yazı yaza.
Bəzən əfkarımı deyirəm saza,
Söhbətin dadına erdiyim yoxdu.

Aşıq İslam:
Bizim burda söhbət də xoş, söz də xoş,
İlk bahar da, son bahar da, yaz da xoş.
Məclis də xoş, söhbət də xoş, söz də xoş,
Qürbəti yadıma saldığım yoxdu.

Musa:
Bura elə bir əcayib məmləkət,
Nə çörəkdə dad var, nə duzda ləzzət.
Su suya bənzəmir, çapıt kimi ət,
Nə yeyir-içirəm, bildiyim yoxdu.

Aşıq İslam:
Çox dolaşdım, seyr eylədim seyranda,
İranda, Təbrizdə, Azərbaycanda.
Sədəfli saz çaldım toyda-bayramda,
Mən burda ləzzətsiz qaldığım yoxdu.

Musa:
Musa bu yerlərdə qalmaq zorunda,
Oranın hər şeyi tutar burunda.
Nə yazında iş var, nə baharında,
Əl uzadıb bir gül dərdiyim yoxdu.

Aşıq İslam:
Burda həyat verir su da, hava da,
Quzu əti bişər paxır tavada.
Oğul, çıx gəl qal bu yurtda-yuvada,
Bu qoca İslamı yorduğun yoxdu.

**Bir məktubunda Musa bir toxunaxlı söz deyər zarafatnan da olsa. Məqsəd, Aşıq İslam bəlkə bir sözlər yaza. Görək nə deyif, Musa nə yazıf:**

Aşıq İslam:
Şair xəyallısan ay əziz balam,
Amma çox möhkəm bir qalaya çatdın.
Nə qədər cəngavər, qəhrəman olsan,
Öz-öznə bulunmaz bəlaya çatdın.

Musa:
Mən şair oğluyam, deyiləm naşı,
Yıldırmaz dünyada qalalar məni.
Ən böyük qəhrəman dürüst olandı,
Doğruyam, qorxutmaz bəlalar məni.

Aşıq İslam:
Sən aşıq deyilsən sazı çalsan da,
Aşıq məclisindən ilham alsan da.
Buraxmam əlimdən çox yalvarsan da,
Bir zalım vəzirə, lalaya çatdın.

Musa:

Mən şeir yazaram, mən saz çalaram,
Əsən yeldən dahi ilham alaram.
Nə aman diləRəm, nə yalvararam,
Qorxutmaz vəzirlər, lalalar məni.

Aşıq İslam:
Mən Aşıq İslamam, qocalmamışam,
Bir çox düşmənimdən öc almamışam.
Alçax könüllüyəm, ucalmamışam,
Şükür et oğlumsan, qolaya çatdın.

Musa:
Musayam, dilərəm hər an cavan qal,
Varsa düşmənindən intiqamın al.
Həp etibarlı ol, hər zaman ucal,
Kölgəsində saxlar babalar məni.

## AŞIQLA BAĞLI BƏZİ ƏHVALATLARDAN KİÇİK PARÇALAR...

İslam Ərdənərin yaşadığı köy Qarsa çox yaxın olduğuna görə, aşıq demək olar ki, hər gün şəhərə gedib gəlirmiş. Arada həm anasının, həm də xanımının köyü olan Dikməyə də gedər, orada da məclislər keçirər, saz çalıb, söz oxuyar, dastan danışarmış.

Zaman-zaman o, öz yaşadığı Ladıkars köyünün əhli-dil ailələrində də müsafir olur, məclislər qurur, aşıqlıq gələnəyini icra edirmiş.

Günlərin bir günü öz məhəllələrinin cavanları gileylənirlər ki, “Ay İslam əmi, nə olur, bir gün də bizə saz çalıb, oxu, bir az da biz dinləyək”, deyirlər.

Aşıq İslam deyir:

– Yaxşı ağrınız alem, filan günü, filan tükənə yığılın, filan saatda oraya gələjəm.

Kənd cavanlarına söz verdiyi gün və saat gəlib çatanda hazırlaşmağa başlayan Aşıq İslama xanımı deyir:

– Ay İslam, xeyirdimi, haraya gedirsən?

– Vallah, xanım, cavanlara söz vermişəm, filan tükənə gedəjəm, onlara bir neçə hava çalıb, oxuyajam.

Xanımı deyir:

– Gəl oraya getmə, oğul-uşaq səni dinləməz, özün də bir təhər adamsan, sonra üzülərsən.

– Yox, getməliyəm, söz vermişəm – deyir, sənətkar.

Aşıq İslam vəd verdiyi yerə gedir. O: << Salam Əleykum, gənclər >> deyə, onları salamlayır. Cavanların bir neçəsi qumar oynayır, bir neçəsi də onlara tamaşa etdikləri üçün qumara başları qarışdığından aşığın gəldiyinə o qədər də əhəmiyyət vermirlər, elə-belə dil ucu salamını alırlar. Sənətkar kirmişcə sazı köynəyindən çıxardır və kökləməyə başlayır. Doğrudur, cavanlardan bir neçəsi könülsüz, can dərdi aşığa qulaq assa da, ürəkləri qumar oynayanların və onlara tamaşa edənlərin yanında qalır. Qumar oynayanların çığır-bağırtısı da tükəni başına götürübmüş.

Aşıq İslam baxıb görür ki, onun çalıb-oxumasına heç əhəmiyyət verən yoxdur. Kirmişcə sazı köynəyinə qoyur və tükənin qapısından çıxmaq üçün bir-iki addım atır və sonra geri dönüb üzünü satıcıya tutub deyir:

– Ağrın alem, mənə yarım kilo semişka (ay çəkirdəyi, günəbaxan) ver. Tükən sahibi:

– Ay İslam əmi, sən semişkanı nağayrajaxsan, sən ki, semişka çırtdamırsan, həm də dişin də yoxdur.

Aşıq İslam:

– Bu semişkanı, götürəjəm evə, qoyajam xanımın qavağına, özüm də oturajam onunla üzbəüz, qoy çırtdasın, ağrın alem, düz mənim üzümə doğru, tüpürə-tüpürə, ona aleram. Ona görə ki, mən evdən çıxanda ona qulaq asmadığım üçün peşmançalığımı bu şəkildə çıxmaq istəyirəm.

***

Səbri Şimşəkoğlu Çıldırda çoban olan vaxtları Aşıq İslam bu mahala toya gedir. Toyun ortasında aşıqla söhbət edən ağsaqqallardan biri deyir ki, ay Aşıq İslam, bizim burda səsi çox gözəl olan yaxşı bir cavan oğlan var. İcazə ver onu gətirək, bir ona sən də qulaq as, gör qavında bir şey varmı. Aşıq İslam razılıq verir. Səbriyi gətirirlər məclisin ortasına. İslam saz çalır, Səbri oxuyur. Aşıq onun səsini, oxumasını çox bəyənir.

Sən demə Səbrinin çobanı olduğu adam da məclisdəymiş. Aşıq İslam üzünü həmin adama tutub deyir:

– Ağa, bu cavan oğlana sənədə neçə lirə verirsən?
Ağa deyir:
– İki yüz lirə verirəm.
Aşıq İslam qayıdır ki;
-Ağa, bu cavan oğlana bir ay icazə ver, mən sənə iki yüz lirə verərəm.
Məclisdəkilərin hamısı Aşıq İslama qoşulurlar. Ağadan Səbriyə izin alırlar. Toy bitəndən sonra Aşıq İslam Səbriyi də götürüb Qarsa gəlir. Bildiklərini gecə-gündüz yeni çırağa öyrədir. Bu da o zaman idi ki, payızın toy-düyününün üst-üstə düşdüyü bir vaxt idi. Həmin payızı Arpaçayın, Qarsın köylərindəki bütün toylara Səbriyi də aparır, yaxşı da pul qazanırlar. Bir gün aşıq gənc Səbriyə deyir ki, a bala, indi get bu puldan ağaya ver, özünü azad eylə, qayıt gəl mənim yanıma. Mən sənə axıradək ustadlıq eyləyəcəyəm, qorxma.
Səbri gedib deyilənləri edir, qayıdır Aşıq İslamın yanına, başlayır ona çıraqlıq etməyə.

***

Bir dəfə Aşıq İslamdan soruşurlar ki, niyə şeir yazmırsan? O hər zamankı əhli-dil halı ilə cavab verir.
– Hafizəmdə o qədər şeir var ki, mən hər dəfə şeir yazmağa başladıqda yazdıqlarımın hər hansı sətirində bildiyim ustad şeirlərindən bir kəlmə belə keçsə, o şeiri yazammıram. Çünki o ustadlara hörmətsizlik olar – deyə düşünürəm. Bu səbəbdən də şeir yazmaq mənim üçün olduqca çətindir. Bir də ki, ustadlar o qədər şeir yazmışlar ki, hətta bir dəfə şeir yazmaq istədim. Həmin şeiri on dəfə yazdım, axırda vaz keçdim.
Çünki mənim millətim, məndən daha yaxşı bir aşıqdır. Mən onlara necə aşıqlıq öyrədə bilərəm, demişdir Aşıq İslam.

## AŞIQ İSLAM KEŞƏLİDƏ

Aşıq İslam Ərdənərin bacısı Anaxanım Seyid qızı (əslində İsəxan qızı) Dəmirçihasannı nahiyəsindəki Kürüstü Keşəli kəndində bu sətirlərin müəllifinin də mənsub olduğu Qıllözdü soyundan, bölgədə çox hörmət-izzət sahibi olan Omar Usub oğlunun həyat yoldaşı idi. 1972-ci ilin yazında Qəmbər Omar oğlu dayısı Aşıq İslamı öz doğma bacısı ilə görüşdürməyə müvəffəq oldu. Belə ki, çox uzun əzab-əziyyətdən sonra onun Aşıq İslamı Keşəliyə gətirməsi (əlbəttə, həmin dönəmdə Sovetlər birliyi üçün tam qapalı olan Türkiyədən, özü də lap yaxın qohumunu gətizdirmək hər oğlun ağzı deyildi) bütün mahalda böyük səs-səda doğurdu.

Aşıq İslam Gürcüstana o vaxtlar bölgəyə Türkiyə ilə SSRİ arasında ən yaxın gömrük məntəqəsi olan Ermənistanın Leninakan rayonu (indiki Gümrü) ərazisindən keçdi. Onu sərhəddə Qəmbər və bir neçə nəfər qohumu qarşıladı. Aşıq İslam özü ilə bərabər kiçik oğlu, atasının adını daşıyan on yaşlı İsəni də gətirmişdi.

Aşıq İslamın Keşəliyə gəlişi o zamanlar tarixi bir hadisəyə çevrildi. Onunla görüşə gələnlərin, aşığı ziyarət edənlərin sayı-hesabı yox idi. Bütün el bu nadir hadisəni bayram edirdi. Keşəli kəndinin sakinlərinin hamısı ev başı onunla görüşmək üçün növbəyə dururdular. Əsas və başlıca məqsəd də hər kəsin öz qohumundan xəbər almaq ümidi ilə görüşə can atması idi.

Günlərlə davam edən belə görüşlərə demək olar ki, mahalın əksər kəndlərindən axıb gələnlərin də ardı-arası kəsilmirdi.

Düz 61 gün Keşəlidə qonaq qalan Aşıq İslam Ərdənərin əvvəlcə Anaxanım Seyid qızının gəlin olduğu Qıllözdü nəslinin hər evi, sonra vaxt, imkan verdikcə kəndin əksər sakinləri növbə ilə Aşıq

İslama qonaqlıq verdilər. Bəzən uzaq kəndlərdən Aşıq İslamın sorağı ilə gələnlər elə qonaqlıq verilən evlərdəcə görüşərdilər. Bəzən də vaxt azlığından bir gündə iki, hətta üç evdə ziyafət verilirdi. Qonaqlıq üçün növbə çatmayanda inciyənlərin, küsənlərin də sayı az olmurdu. Çağrıldığı evə Aşıq İslam başının bütün yığnağı ilə (ən azı 15-20 nəfərlə) bərabər gedərdi. Keşəlilərin yaddaşında qalan bir də o oldu ki, Aşıq İslam özü ilə barəbər gətirdiyi balaca İsə, heç bir qonaqlığa getmir, bütün günü kəndin ortasında ancaq velosiped sürürdü.

Aşıq İslamın çox iti yaddaşı, zəngin biliyi, möhkəm hafizəsi gələnlərin, sorğulaşanların demək olar ki, əksəriyyətini razı sala bilirdi. Bəlkə də müsafirə bu sahədə kömək edən onun sənəti – aşıqlığı daha çox yardım edirdi. Axı, o zamanlar aşıqlar günlərlə, aylarla ev üzü görməz, oba-oba gəzər, toy-düyünlərdə iştirak edər,bir çox müdriklərin söhbətlərini dinləyər, ağsaqqallardan çox şey öyrənərdilər. Aşıq İslam da ustad bir aşıq olduğu üçün Ərdahan, Qars, Sarıqamış, Çıldır, İqdır, bu yandan Ərzurum, Ərzincan və s. yörələrdə Qarapapaqların yaşadıqları bölgələrin hamısını, çox gözəl tanıyırdı. Ona görə də verilən hər bir suala, anında ətraflı şəkildə, qarşısındakını razı sala biləcək qədər dolğun cavab verirdi.

İki aydan artıq qonaq qaldığı vaxt ərzində Aşıq İslamın başının yığıncağı heç vaxt əskik olmadı. O, həm də arada vaxt tapıb, ünlü Borçalı aşıqları ilə görüşürdü.Hüseyn Saraçlı ilə görüşü xüsusilə yadda qalan oldu. Türkiyədən Hüseyn Saraçlı üçün gətirdiyi hədiyyə - döşə taxılan sazın qızıldan düzəldilmiş nişan formasını o belə izah etdi: << Saraşdı Söyünü bütün Türkiyədəki Qarapapaqlar çox sevir. Onun oxuduğu havaların hamısını bizim oradakı aşıqlar hər məclisdə oxuyurlar. Mən də onun vurğunuyam, bura gələndə ən böyük arzularımdan biri də Saraşdı Söyün, Mikayıl Azaflı və başqaları ilə görüşmək idi. İnşallah, yəqin imkan olsa, Allah izin versə, qohumlarım mənə yardımçı olsa, Mikayıl Azaflı ilə də görüşmək qismət olar >>. Aşıq İslamın qonaq olduğu müddətdə onun yanından heç ayrılmayanlardan biri də Qıllıözdü Camal Mirzə oğlu Qəmbərlə birlikdə müsafirin bütün diləklərini yerinə yetirdikləri kimi, Tovuza Mikayıl Azaflının dalınca da getdilər. Doğrudur, o zamanlar kənddə maşın çox az idi. Yəni ancaq barmaqla sayılacaq qədər vardı. “Moskviç” markalı maşınlardan biri də Camal Mirzə oğlunda olduğu üçün, həm də o bölgəni yaxşı tanıdığına görə, Mikayıl Azaflının dalınca getmək, onu gətirmək, onun əlində su içimi kimi bir şey idi.

Bir də ki, Aşıq İslamın ürəyindən keçənləri yerinə yetirəndə elə bil onların özləri də çox rahatlanırdılar. Bütün qohum-əqraba əlindən gələni edirdi ki, bu cür nadir qonaq əlli ildə bir dəfə ələ düşüb. Onlar haradan biləydilər ki, 20-30 ildən sonra Sovetlər birliyi dağılacaq, qapılar açılacaq, hamı öz doğmalarına qovuşacaq. Bu onların heç yatanda da yuxularına girməzdi. Bütün camaat elə düşünürdü ki, onların elə görüb-görəcəyi təkcə Aşıq İslam olacaq.

İnsafən, onu da deyək ki, Aşıq İslam da hər şeyi çox dəqiq, yeri-yerində anladır, verdiyi məlumatların hamısı da düppədüz idi. Kişidə sanki bir Allah vergisi vardı. Ensiklopedik məlumatlara malik idi.

Bu sətirlərin müəllifinə də həmin vaxtlar Aşıq İslam Ərdənəri görmək xoşbəxtliyi nəsib oldu. O zamanlar mən tələbə idim. A.S.Puşkin adına Tbilisi Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsinin birinci kursunda oxuyurdum. Yaşadığım Keşəli kəndi Tbilisdən çox da uzaq olmadığına görə şənbə günü mühazirələrdən sonra evə gələr, bazar ertəsi səhər tezdən dərsə qayıdardım.

Aşıq İslam Keşəlidə olan həmin yaz günlərinin birində evə gələrkən bizdə qonaqlıq üçün möhkəm hazırlıq gedirdi. Sən demə, Aşıq İslama ziyafət vermək növbəsi bizim evdə imiş.

Saat təxminən 11-12 olardı, Aşıq İslam və başının bütün yığnağı gəldi (O, hara qonaq gedirdisə ətrafında Keşəlinin hörmətli ağsaqqalları və ziyalıları, bir də əgər Borçalının başqa kəndlərindən onu ziyarətə gələn vardısa, birlikdə gələrdilər). O, əgər çağrıldığı ev çox da uzaqda deyildisə, hökmən hamı ilə birlikdə kəndin içi ilə piyada gedərdi. Doğrudur, hörmət əlaməti olaraq ev sahibi onun dalınca maşın göndərərdi, ancaq Aşıq İslam çox vaxt piyada getməyi tərcih edirdi. Nəhayət, hörmətli qonaq gəlib çıxdı. O arıq cüssəli bir kişi idi. Əynində boz plaş, başında qara panama vardı.

Hamı ilə sanki lap çoxdan tanış imiş kimi görüşdü. Çoxlarımıza qəribə gəlirdi. Sanki o, Türkiyədən yox, elə Soyuqbulaq kəndindən gəlmişdi. Hamı müsafirlər üçün hazırlanmış otağa daxil oldu. Aşıq İslam lap başda əyləşdi. Təbii ki, bütün məclisin diqqəti onda idi. Hamı sakitcə oturub ona qulaq asırdı, heç kəsdən səs çıxmırdı. Kimsə dillənsəydi, o da ancaq sual verib, nəyisə soruşanda səsi çıxardı. Bütün məclis boyu ancaq o danışdı. Aşıq İslam elə bir şirin Borçalı ləhcəsi ilə danışırdı ki, nabələd adam onun heç Keşəlidən belə qırağa çıxmadığına şübhə ilə yanaşmazdı. Yaxşı yadımdadır, həmin məclisdə Camal Mirzə oğlu hörmətli qonağa belə bir sual verdi: "Ay İslam dayı, sizin kəndlərlə, bizim kəndlərin fərqi varmı, oranın kəndlərimi yaxşıdır, yoxsa buranın kəndlərimi? Aşıq İslam: "A bala, a Camal, sizin kəndlər bizim kəndlərin yanında şəhərdir, sizin şəhərlər bizim şəhərlərin yanıda kənddir" – deyə cavab verdi. Bu cür, Türkiyə ilə buranı müqayisə etməklə bağlı olurdu qonağa verilən ümumi sualların əksəriyyəti. Keşəlidə olduğu müddətdə onu ziyarətə gələnlərin çoxlarını zahiri görünüşünə görə hansı soydan olduğunu təxmin edərək, yanılmadan söyləyirdi, bu el ozanı – Aşıq İslam Ərdənər.

Nəhayət, vaxt tamam oldu. 61 gün arxada qaldı. Ayrılıq çox ağır idi. Yenidən bu acını yaşamaq bacı və qardaş üçün, eləcə də ailədəkilər üçün həddən artıq çətin idi. Göz yaşlarını saxlaya bilməyən Aşıq İslam bacısını qucaqlayaraq "Allah böyükdür, ölmədik görüşdük, inşallah, kim bilir, bəlkə də yenə də görüşmək qismət oldu" – sözlərini sakitcə söylədi.

Aşıq İslam gəldiyi Gümrü keçid məntəqəsindən geri Qarsa döndü. Doğma kəndinə qayıdanda aşığın başına orda toplaşanların sayı-hesabı yox idi. Orada yanına yığılanlara burada gördüklərini o şeirlərlə söylədi:

Ay ellər, mən sizə vəsf edim gəlin,
Mən orda söhbətə, sözə mat qaldım.
Şairə, şeirə, dastan deyənə,
Aşığın çaldığı saza mat qaldım.

Gəzdim o aranı, gördüm Göy dağı,
Bərəkətdən coşub Kürün qırağı,
Gözəl bar veribdi baxçası-bağı,
Ordakı bahara, yaza mat qaldım.

Yazsam yazdığımı, yazardım nələr,
Həsrəti ox kimi sinəmi dələr,
Mənnən yaşayacaq bu xatirələr,
Ürəkdən deyirəm sizə, mat qaldım.

Aşıq İslam gəşt eylədi, dolandı,
Bəzən çox duruldu, bəzən bulandı,
Həsrətin, hicranın oduna yandı,
Sinəm üstə yanan közə mat qaldım.

Gəzib-dolandığı obalarda, Keşəlidə gördüklərini Aşıq İslam belə anlatdı ordakılara.

Vətəninə dönərkən başqa bir şeirində aşıq soruşanlara, öz yaxın qohum-əqrabalarına, 50 il həsrətində olduğu bacısı Anaxanımı, bacısı oğlu Qəmbəri, doğma Keşəli kəndini belə qələmə almışdır:

İllər boyu həsrət idim bajıma,
Borçalıya gedib, onu şad gördüm.
Dedim, bir son qoyum mən bu ajıma,
Qohum gördüm, qardaş gördüm, yad gördüm.

Borçalı mahalı, Keşəli kəndi,
Şadlığa bələndi, bayrama döndü,
Surfalar açıldı, od-ojax yandı,
Unudulmaz ləzzət gördüm, dad gördüm.

Çox şükür, şenlənif odu-ojağı,
Məni şad eylədi, dolu bujağı,
Gözəl bar verifdi baxçası-bağı,
Qəmbərtək vəfalı bir övlad gördüm.

Azaflının qəm, kədər var sözündə,
Çəkdiyi əzabın izi üzündə,
"Dilqəmi", "Dübeyti" çalar sazında,
Sinəsində yanan alov-od gördüm.

Gəşt etdim aranı, seyr etdim Kürü,
Xəyalən gəzirəm yenə o yeri,
Bu elə gəldiyim saatdan bəri,
Yaddan çıxmayacaq söz-söhbət gördüm.

Saraşdı Söyünnən, Kamandar qağa,
Hər ikisi bənzər qaynar bulağa,
Sənətində oxşar uca bir dağa,
İlhamını yel qanadlı at gördüm.

Borçalı elində gördüyüm hamı,
Şadlığa çevirdi qəmli dünyamı,
El bağrına basdı Aşıq İslamı,
Çox böyük gələnək, orf-adət gördüm.

Ümumiyyətlə, Aşıq İslam Ərdənər, Borçalıya, Keşəliyə xeyli şeir həsr etmişdir.

## MİKAYIL AZAFLI VƏ İSLAM ƏRDƏNƏR

Türk dünyası aşıq sənətinin iki azman ustad ozanı – Mikayıl Azaflı və Qarslı Aşıq İslam Ərdənər bir-birlərinin müasirləri olsalar da, ancaq onlara görüşmək uzun zaman qismət olmamışdır. Buna əsas və başlıca səbəb dövrün çox ciddi və ağır rejimi olmuşdur.

Biri-birini ancaq sənət vasitəsi ilə tanıyan iki adıbəlli dahidən biri Azərbaycanda, digəri isə Türkiyədə bu ulu sənətin yaşamasında və inkişaf etməsində misilsiz xidmətlər göstərmiş ustad ozanlardandır.

Bu dahi saz-söz xiridarları bir-birilə o zamanlar çox nadir hallarda təkdə-tükdə gedib-gələnlərlə əlaqə saxlamış, ismarıclar yollaya bilmişlər.

Bu da hamımıza yaxşı məlumdur ki, Sovet rejimi əleyhinə qarşı etdiyi çıxışlara görə Mikayıl Azaflının başı nə bəlalar çəkmiş və hətta qazamatda belə yatmalı olmuşdur. (Elə buradaca qeyd etmək istəyirik ki, bu gün hamımızın dilində əzbər olan, aşıqların hər düyündə oxuduğu "Ağarmayın ay saçlarım, ağarmayın" şeirini sənətkar məhz həmin illərdə yazmışdır).

Aranı kəsmiş tikanlı məftillər, türk dünyasına düşmən olanların ciddi narahatçılığı və təhlükəsinin xofu bu iki dahi sənətkarın görüşməsinə xeyli əngəllər törətmişdir.

Bizə çatan bilgilərdən məlum olur ki, onlar görüşünədək hər iki sənətkar bir-birinin yaradıcılıqlarına dərindən bələd imiş. Aşıq İslam Ərdənərin söylədiklərinə istinadən deyə bilərik ki, Qars aşıq məktəbində Mikayıl Azaflı çox yaxşı tanınırmış. Bölgədəki hər bir aşıq böyük ustadın şeirlərinin çoxunu əzbər bilirmiş. Qarslı aşığın söylədiyinə görə, bölgədə elə bir Qarapapaq düyünü olmazmış ki, orada Mikayıl Azaflıdan bir neçə hava çalınıb, sözləri oxunmasın.

Nəhayət, sənətkarların bəlkə də heç ümid edə bilmədikləri, həsrət dolu görüşləri 1972-ci ilin yazında gerçəkləşdi.

Əslən Dağ Borçalısının Soyuqbulaq kəndindən olan (Ermənistan, Kalinino rayonu) Aşıq İslam Ərdənəri 1972-ci ildə doğma bacısı oğlu, Aran Borçalısının Kürüstü Keşəli kəndindən olan Qıllözdü Qəmbər Omar oğlu (Allah ona rəhmət eləsin) uzun əzab-əziyyətdən sonra qonaq gətirməyə müvəffəq oldu. Yarım əsrlik ayrılıqdan sonra doğmaları ilə dədə yurdunda görüşən (onun keçmişləri Keşəlidən Soyuqbulağa getmişlər) İslam Ərdənərin gəlişi bütün Borçalı və ətraf bölgələrdə böyük toy-bayrama çevrilir.

Onun ziyarətinə qohumlar və eloğlulardan daha çox saz-söz adamları yığışır. Borçalının adlı-sanlı aşıqları onunla görüşür.

Nəhayət, İslam Ərdənərin ən çox arzuladığı və böyük həsrətlə görmək istədiyi Mikayıl Azaflıya ismarıc gedir. Aşıq Mikayıl Azaflı Tovuzun Azaflı kəndinə xəbər aparan elə həmin maşınla da heç vaxt itirmədən Keşəliyə Aşıq İslamın görüşünə gəlir. Təxminən bir neçə gün bərabər sözdən, sənətdən, keçmiş ustadlardan danışan bu adıbəlli ustadların görüşündə həmin vaxtlar Bakı Dövlət Universitetinin tələbələri olan Əli Şamil (indi o məşhur tədqiqatçı alimdir), Osman Əhmədoğlu (indi o tanınmış şair və Borçalı Aşıqlar Birliyinin sədridir) bir neçə dəfə iştirak edib və çoxlu qeydlər aparmışlar.

Bir göz qırpımında 61 gün gəlib keçir. Aşıq islam Ərdənərin Qarsa, yaşadığı Kümbətli (Ladıkars) köyünə dönməsinin vaxtı çatır.

Qarslı aşıq vətənə dönərkən Mikayıl Azaflı da yola salanların arasında olur. Aşıq İslam onun çoxlu sayda şeirini özü ilə götürür.

Bir-biri ilə qucaqlaşan sənət dahiləri ayrılarkən Mikayıl Azaflı bədahətən bir şeir söyləyir:

Azaflıdan salam olsun qardaşa, arkadaşa,
Arzumuzun pak vicdanı toxunmasın sərt daşa,
Zaman gəlsin ellərimiz yığılsınlar baş-başa,
Dünya İslam qardaş olsun, amin, pərvərdigara.

Camaatla görüşüb ayrılarkən Mikayıl Azaflı baxıb görür ki, həm İslam, həm də bacısı Anaxanım bərk ağlayırlar. Elə oradaca şair deyir:

Əziz qardaş, səbr et, sıxma qəlbini,
Qəmi-qəm üstünə düzüb ağlama,
Yerin, göyün, sahiblərin sahibi,
Bəlkə özü belə yazıb, ağlama.

Mində biri bulur sıtkı sadiq yar,
Məhəbbət bağını yolub intizar,
İçində incisi, dürdanəsi var,
Dahi ürəyini üzüb ağlama.

Azaflı, əzabdan qaçan kişi var,
Qaranlığa işıq saçan kişi var,

Bir yandan bağlayıb, açan kişi var,
Umudunu haqdan üzüb ağlama.

Bu şeiri söyləyəndən sonra, şair o zamankı rejimi lənətləyərək, onun sona çatacağını, yaradandan ümidin kəsilməyəcəyini deyərək dostunu yola salır.

Əlbəttə ki, İslam Ərdənər Mikayıl Azaflının başına açılan bəlalardan hələ böyük sənətkarlar görüşməmişdən öncə xəbərdar idi. Qarslı ozan M.Azaflının danışığından da, simasından da onun necə əzab-əziyyətlərə məruz qaldığını o saat hiss etmişdi. Sovet tejimi onu çox incitmişdi. O, geri vətənə Türkiyəyə dönərkən ustad haqqında şeirlərinin birində belə yazmışdır:

Azaflının kədər-qəm var sözündə,
Çəkdiyi əzabın izi üzündə,
"Dilqəmi", "Dübeyti" çalır sazında,
Sinəsində yanan od-alov gördüm.

**Qeyd:** Mikayıl Azaflının şeirlərini bizə Aşıq İslam Ərdənərin oğlu Musa Ərdənər göndərmişdir. Ona dərin təşəkkürümüzü bildiririk. Şeiri necə göndəribsə, heç nəyinə toxunmadan olduğu kimi veririk.

## HÜSEYN SARAÇLI VƏ İSLAM ƏRDƏNƏR

Türkiyədən Borçalının Keşəli kəndinə öz doğma bacısı Anaxanımın həsrətiylə görüşə gələn Aşıq İslamın bir sənətkar kimi buradakı istək və arzularından biri də dədə yurdunun aşıqları ilə görüşməsi olub.

Qarslı ustad ozanla bağlı məqalə və xatirələrdən də göründüyü kimi, onun Borcalıya səfəri zamanı burada xeyli ustad sənətkarla görüşmüş, söhbətləşmiş, günlərlə bərabər çalıb oxumuş, atışmalar yapmış (deyişmiş), biri-birilərinə şerlər qoşmuşlar. Aşıq İslamın görüşdüyü bu aşıqların icərisində Mikayil Azaflı, Hüseyn Saraçlı, Əhməd Sadaxlı, Sədi Ulaşlı, Aşıq Ziyəddin və. s. kimi sənətkarlar da olmuşdur. Bu görüşlərdə ən cox yadda qalan ustad aşıqlardan biri də qeyd etdiyimiz kimi Hüseyn Saraçlı olmuşdur.

Hər iki korifey aşıq bu tarixi görüşədək biri-birilərinin sənətkarlığından ancaq efir vasitəsiylə tanışıydı. Ünlü Qarapapaq türk ozanlarının bu görüşünə o zamanlar Keşəli və Borçalının ətraf kəndlərindən xeyli adam toplaşmışdı. Hüseyn Saraçlı həmin görüşə öz çıraqları Əhməd Sadaxlı və Sədi Ulaşlı ilə bərabər gəlmişdi.

Bu da cox maraqlıdır ki, Aşıq İslam Türkiyədən məxsusi olaraq sənət dostu ücün gətirdiyi sovqatları icində altundan düzəldilmiş saz şəkilli döş nişanı da vardı. Onu da qeyd edək ki, Hüseyn Saraçlı ömrünün sonunadək həmin nişanı sinəsində qürurla gəzdirmişdir.

Bu böyük sənətkarlar arasındakı həmin görüş İslam Ərdənərin bacısının Keşəlidəki evində baş tutmuş və iki-üc gün davam etmişdi. Təbiidir ki, bu görüşün başlıca məqsədi hər iki ozanın bir-birinə ziyarət etməklə yanaşı, onların arasındakı, söhbətin əsas məğzi Borçalı və Qars aşıqları, bu ulu sənətin keçmişi, indisi, dastanlarımız, onun hər iki tərəfdə hansı şəkildə qalması, saz havalarımız və ümumiyyətlə, sənət barəsində olmuşdur.

İslam Ərdənər Qarsa qayıtdıqdan sonra Borçalıda gördüklərini, saza, sözə, sənətə, sənətkarlığa neçə yüksək qiymət verildiyini " Mat qaldım" adlı bir qoşmasında belə qələmə almışdır:

Ay ellər, mən sizə vəsf edim gəlin,
Mən orada söhbətə, sözə mat qaldım.

Şairə, şeirə, dastan deyənə,
Aşığın çaldığı saza mat qaldım.

Yaxud “ Mən orda” adlı digər bir qoşmasında da bu barədə belə yazmışdır:

Əbədi elimin okyanusunda,
Bir səfinə kimi üzdüm mən orda.
Şairin, şeirin, sazın, sənətin,
Zirvə imiş yeri, sezdim mən orda.

Ümumiyyətlə, götürsək Aşıq İslamın şeirlərinin əksəriyyətində Borçalı səfərinə cox yer verilmiş, görüşdüyü aşıqları, gördüyü yerləri, söhbət etdiyi insanları tez-tez xatırlamış, onlara böyük dəyər vermişdir. O, aşıqlığını yüksək dəyərləndirdiyi Hüseyn Saraçlı və Aşıq Kamandarın sənətkarlığından cox etkilənmiş və duyğularını belə qələmə almışdır:

Saraşdı Söyünnən, Kamandar qağa,
Hər ikisi bənzər qaynar bulağa,
Sənətində oxşar uca bir dağa,
İlhamını yel qanadlı at gördum.

Doğrudur, bu görüş hər iki korifey sənətkarın üzbəüz ilk və son görüşü olsa da, sonralar onlar biri –birilərinə məktublar, şeirlər, deyişmələr yazmış, sovqatlar göndərərək əlaqələrini ömürlərinin sonunadək kəsməmişlər. Cox təəssüflər olsun ki, həmin yazışmalardan əlimizdə yalnız böyük ozanların deyişmələrindən ançaq birçə nümunə var. Ustad Hüseyn Saraçlının şəxsi arxivində olan bu deyişmənin başlığı belədir: “ Türk aşığı Ladiqarstanlı İslamla deyişmə”. Həmin deyişmənin sonunçu bəndləri belədir:

İslam Ərdənər:

Aşıq İslam sevər mahu-tabanı,
Gəşt eləyər bərri çol-biyabanı,
Mənim dərdli sinəmdəki yaranı,
Əl atıb neştərnən deşməyən bilməz.

Hüseyn Saraçlı:

Saraçlı Hüseynəm, ellər tanıyır,
Fələk günümüzü bir-bir sanayır,
Dərdimənd görəndə qəlbim qanayır,
Sənət qapısını açmayan bilməz.

Bəlkə də hər iki sənətkar arasında yuxarıda da qeyd etdiyimiz kimi, bu cür deyişmələr daha cox olmuşdur....

---

P.S.
Bu tarixi görüş barədə kitabda getmiş şahidlərin xatirələrində daha geniş və ətraflı məlumat verilmişdir.

## DƏRVİŞ OSMANIN XATİRƏLƏRİ

Heç yatanda yuxuma da girməzdi Qarslı Aşıq İslam Ərdənərlə görüşəcəyəm. Tək Anaxanım büvümün hüznlü bayatılarında, laylalarında, oxşamalarında və onlara qarışan hıçqırıqlarında eşidərdim onun adını. Zamanın amansız fərmanıyla çox həsrətlilərin qovuşammadığını bilirdim. Anamın oxşamalarından da yadımda qalanlar varıydı...

Qarsdan, Qağızmannan bir cüt qol bəzməndi boylaner,
Yaralarım bu həsrətdən elə hoylaner...

Və bir də Aşıq Qərib dastanından vüsala aparan yolun haradan hara aparılmasında bir misra Qəriblə bərabər məni də qovuşdurardı Qarsa.

...Öylə namazını Qarsın düzündə

Mən də özümü Xızır əleyhissalamın atının tərkində hiss eyləyərdim. Beləcə mürgü döyən murazımızın röyalarında çabalayardım.

Heç yatanda yuxuma da girməzdi Qarslı Aşıq İslam Ərdənərin Borçalıya gələ bilmə ehtimalı və o zamankı Azərbaycan Dövlət Universitetinin tələbələrindən ikisi bu xəbəri eşidəndə dərsdən qaçıb Bakı-Tiflis qatarıyla özlərini Keşəliyə (Borçalının Kürüstü kəndlərindən biri – Aşıq İslamın bacısı Anaxanım büvümüz həmən kənddə yaşayırdı) çatdırmaları. 1972-ci ilin yazıydı. Universitetin 3 saylı yataqxanasının II qatında qalan filologiya fakültəsinin tələbələri Borçalıdan gələn bir xəbərə öz münasibətlərini bildirirdilər.

Belə ki, böyük qardaşım Eldar telefonla mənə xəbər verdi ki, Qarsdan Aşıq İslamı öz bacısı oğlu Qənbər müəllim (Allah rəhmət eləsin) dövlətin icazəsiylə qonaq gətirib. Bütün el bayram içindədir. İnsanlar onu qonaq aparmaq üçün növbəyə durub. Hətta eşidən-bilən qonşu kəndlərdən də insanlar axın-axın onun görüşünə gəlir. Hətta onu öz kəndlərinə qonaq aparırlar. Aləm qarışıb bir-birinə. Aşıq İslam, neçə itkinlərdən xəbər gətirib. Bütün nəsilləri-şəcərələri əzbər bilir. Hətta bəzi adamlara baxarkən onların hansı nəsildən olduğunu təyin eləyə bilir. 1941-45-ci il müharibəsindən qayıtmayanların bəzilərinin də Türkiyədə sağ-salamat yaşadığından xəbər bilir. Bir də Eldar onu dedi ki, qardaşımız Eyyub da (Allah ona rəhmət eləsin), mən də Aşıq İslamı qonaq gətirmək üçün növbəyə yazılmışıq. Əgər imkanın olarsa, tələbə yoldaşlarından da gəlmək istəyən varsa, gecikməyin, yolunuzu gözləyirik.

Doğrusu, bu xəbərdən yaman köyrəlmişdim və bunu tələbə yoldaşlarımla bölüşmək istədim. Kim istəyirsə, varax, gedək dedim. Amma dediyimə peşman oldum. Heç kəsdən səs-səmir çıxmadı. Hətta bəziləri bir az mənə sataşdılar da.

Əslində bu uzun yolu gəlmək və sonra geri dönmək də o qədər asan deyildi. Gündüzlər oxusaq da bəzi tələbələr axşamlar və ya gecələr çalışır, bir qədər əmək haqqı almaqla dolanırdı.

Gəlmək də çətin idi, gəlməmək də.

Gördüm təklənirəm, heç kəsə heç nə demədim. Və özüm də iki su arasında qalmışdım. Düşüncələrim getmək lazımdı, deyirdi. İmkanlarımsa getməmək.

Mənə daha yaxın olanların bu görüşə getməsini çox istərdim, o biri tərəfdəysə çarəsizlik varıydı.

Əli – dərsdən sonra Sumqayıta gedir və gecə saat 12-yə ancaq dönürdü. İsrafil – gecə saat 12-dən səhər saat 6-yadək metroda çalışırdı. Süleyman – musiqili komediya teatrında gah fəhlə, gah suflyor, gah kütləvi səhnələrdə üç-dörd söz deməklə çörək pulu qazanardı. Çox dərinə getməməyə çalışdım.

Amma nə qədər olsa da yüz fikir bir borcu ödəmir. Bayaqdan bir kəlmə kəsməyən Əli axşam tərəfi Baksovetdə görüşməyimizi istədi və getdi. Hara getdiyini də bilmədim. Vədələşdiyimiz kimi saat 5-də Baksovet metrosunun qabağında görüşdük və üzüaşağı filarmoniyanın yanından düz dənizkənarı

bulvara getdik. Həmişə olduğu kimi söz-sözü çəkdi, söhbət-söhbəti. Sonra Əli məndən soruşdu ki, Tiflis qatarı nə vaxt yola düşür? Gedək dəmiryol vağzalına. Qatarın yola düşməsini heç vaxt görməmişəm. Gedək dedim. Doğrusu, Anarın məşhur Kəbirlinski obrazı düşdü yadıma. Dedim yəqin qardaş məni ovundurmaq üçün hər şeyə əl atır.

Getdik. Vağzalın səs-küyü, tanışlar. Qatarların yola salınma anı. Yola salanlar, gedənlər, kövrələnlər, sevinənlər. Tiflis qatarı birinci yolda, birinci platformada dayanmışdı. Doğrusu, tanış-bilişləri görüncə ara-sıra doluxsunur, amma büruzə verməməyə çalışırdım. Biz vaqonların yanında irəli-geri gedirdik. Birdən diktorun gur səsi eşidildi:

– Bakıdan Tbilisiyə gedən 38 saylı sürət qatarı yola düşür. Qatar tərpəndi və Əli əlindəki qəzet bükülüsüylə başıma vurdu və məni tərpənən vaqonlardan birinin qapısına tərəf itələdi.

– Əli, neynirsən - dedim.

– Tez ol, min, dedi. Biz bu qatarla gedirik. O ana qədər mənə heç nə deməyən Əli, sən demə yol biletini də alıbmış.

Həmin gecə yol boyu həyəcanım heç azalmadı. Rustavidəki dayanacaqda qatardan enməyimizlə Keşəliyə çatmağımız heç bir saat çəkmədi. Kürün qaşındakı dədə-baba evimiz, adnan söylənən cənnət bağımız, anamın öz qucağı, atam ilk ziyarətimiz oldu. Dəli Kürün qarğın vaxtı, sellərin insanları vahiməyə salan zamanıydı. Qarayazı meşəsinnən səksəkəli maralların bir göz qırpımında sıçrayıb açıq talaya çıxmasını, sonra da göründüyü kimi qeybə çəkilməsini görmək nə qədər də xoş ovqat yaradırdı bu mənzərəni seyr eləyənlərdə.

Ağzımıza bir az nəfaxa (qəlyanaltı) alandan sonra üz tutduq Anaxanım büvümgil tərəfə. Bütün kəndin və bəlkə də bütün Borçalının qəlbi orda döyünürdü onda. Omar Usub oğlunun həyətində iynə atsan yerə düşməzdi. Gələn kim, gedən kim, söz-söhbətin dadınnan doymayan və sabah gəlib axşama qədər geri dönməyən neçə-neçə qəlbi təşnələr, saz-söhbət vurğunları çox böyük meydan artırmada əyləşiblər. Bir tərəfdən çay daşdaner, bir tərəfdən əmlik quzular kəsiler. Məclisin tən ortasında, görən kimi heyran olduğumuz Aşıq İslam dayımız bütün məclis əhlini öz sehrində hayıl-mayıl eyləyib. Çivin uçsa aləmi qarışdırar. Məclisin ayaq tərəfindən bizə, Əliylə mənə yer elədilər. Yenicə oturmağa hazırlaşırdıq ki, Aşıq İslam bizə tərəf döndü:

– Gəl, Osman bava, gəl, dedi. Və sonra da dedi ki, səninlə gələn o biri öyrənci də Əli balamdı. Göyçə ellərindəndi. Allah Təala Aşıq Ələsgərə, Alıya, İmana və bütün Göyçəli ustadlara rəhmət eləsin.

Bizə sarı gəldi. Və bu anda bütün məclisdəkilərin də diqqəti bizə cəlb olundu. Hər ikimizi bağrına basdı. Sonra da bir xeyli Osman bavamdan danışdı. Onun oralara nə cür getdiyindən. Hacı Mahmud Əfəndinin ocağına necə bağlandığından və onun buralardan Amasyaya apardığı ləl-cavahiratdan, xalcalardan. Öz yaşının az olmasına baxmayaraq Osman bavasının atını Karsın çöllərində necə otlaqlara örükləməsindən danışdı. Və bavamın (Yəni Cındır Osmanın) ruhuna bir dua oxuyandan sonra söz-söhbətinə davam eləməyə başladı.

Biz – yəni Əliylə, mən həmin gün bir şeyin də şahidi olduq. Qarslı aşıq İslamın ziyarətinə gələnlərin çoxu onun görüşünə pay-paxaclı gəlirdi. Hətta elə adamlar varıydı ki, özləriylə toğlu, quzu gətirir və gələn kimi də gətirdikləri heyvanları qurban kimi İslam kişinin ayaqları altında kəsirdilər.

Əslində, nə Omar əminin, nə də Qəmbər müəllimin bunlara ehtiyacı yox idi. Onların doğrudan da yüzlərlə qoyun-quzusu varıydı. Amma gələn adamların payla gəlməsi bir istəyiydi, bir məhəbbətiydi və həm də uzun ayrılığın, hicranın sonunda gerçəkləşən böyük bir vüsalın təntənəsinnəniydi. Və həmin günnən yadımda daha çox qalanlardan biri də Aşıq İslamın fenomen yaddaşı oldu. Bu adam

sanki dünyanı bilirdi. Ona verilən sualların "yox" cavabı yoxuydu. Dini söhbətləri önündə din xadimləri aciziydi. Elmi söhbətlərinin dinləyən alimlər heyrət içindəydi. Tarixçilər ondan tarix dərsi alırdılar. Aşıqlardan, şairlərdən başlayanda da bitməzdi, tükənməzdi bu adam...

Danışdığı dastanlardan doyulmazdı heç zaman. O danışır, danışdıqca biz yazırdıq. Bizimlə bərabər neçə adam əlində qələm-dəftər onun ağzından çıxan zər kəlamları döşürürdük bircə-bircə. Həmin gün necə keçdi, yatmaq zamanı necə gəldi, biz hiss eləmədik. İnanın gecələri də əgər Anaxanım büvüm onu adamların əlinnən almasaydı bəlkə yenə heç kəs ayrılmazdı ondan. Qonaqlığa getdiyi evlərdə də danışar, danışar yorulmazdı heç zaman. Bizim orda olduğumuz günün sabahı rəhmətlik Söyün Saraşdı gəldi Keşəliyə. Yanında öz çıraqları – Aşıq Əhməd Sadaxlı, Aşıq Sədi Ulaşdı. Burda da İslam kişi danışır, bizlər və Aşıq Söyünün əlavə adamları döşürürdük onun tökdüklərini. Və biz onda ilk dəfə Aşıq Şenniyin əlavə dastanlarını eşitdik Aşıq İslamdan. Düzdür, əvvəllər Azərbaycan dastanları kitabında "Lətif şah" adlı bir dastanının olduğundan halıydıq Şennik babanın. Əlavə olaraq Aşıq İslamın söylədiyi "Sövdəgər", "Salman bəy və Dürrətel" dastanlarını ilk dəfə Aşıq İslamdan yazdıq. (Doğrudu, bu dastanları daha sonralar Söyün Saraşdı bədii dəyişikliklə çap elətdirdi. Və buna gələcək araşdırmacılar öz sözlərini deyəcəklər).

Və neçə-neçə digər bizim bilmədyimiz böyük saz və söz ustadlarının adını çəkdi. Onların sözlərini və özlərini bizlərə doya-doya sevdirdi Aşıq İslam.

Xəstə Hasan, Qaranı, Nihani, İzani, Giryani, Summanı,Reyhanı, Dəli Tamı, Omar, Küfdadi və neçə-neçə belə ustadların şeirlərini yazdırdı bizlərə Aşıq İslam.

Yəqin çoxları bilirlər, rəhmətlik Aşıq Söyün Saraşdının bir döş nişanı varıydı (yəqin ki, hal-hazırda yenə onun evində bu gün də durur. Əslində durmalıdır da). Həmən nişanın üzərnidə 20 qram xalis qızıldan tökülmüş bir saz abidəsi həkk olunmuşdu. Və ustad da onu hər zaman döşündə qürurla gəzdirirdi. Bax o döş nişanını Türkiyədən Aşıq İslam məxsusi olaraq Aşıq Söyün Saraşdıya düzəltdirib gətirmişdi. Onun dediklərinə görə bir aşıq kimi bu ustadı Türkiyədə çox sevərlər, Azaflı Mikayılı da bir el şairi kimi bütün Türkiyə sevər deyərdi Aşıq İslam.

İnsanlar elə bil bu adamı tütyə bilirdilər. Biz çox görmüşük bəzi adamlara, məsələ, vəzifə sahiblərinə, pullu yekəxanalara və ya arxalı nadanlara bəzilərinin necə iblisanə yan basdıqlarını. Amma Aşıq İslam başqaydı və ona olan sevgi də bambaşqaydı, sayğı da. Nə bu cür mələk ruhlu adamlara o qədər də asanlıqla təsadüf etmək olmaz, nə də bütün göstəricilərinə görə kamillər kamilinə. Və İslam dayımız məhz belə birisiydi. Üstəgəl onun Qarsdan gəlməsi ayrı bir hiss və duyğu aşılayırdı hər kəsdə.

Bəli, onu dinləməkdən doyana inanmaq çox çətiniydi. Oydu ki, hər kəs onunula görüşə tələsir, onu doyunca dinləmək istəyirdi. Və bizim onunla görüşümüzün ikinci günü çox maraqlı və məzəli bir söhbət oldu. Aşıq İslamın görüşünə gələnlərin sayının çoxluğunu və onların yaxın, uzaq ellərdən də olduğunu söyləmişdik. Bunu da əlavə eyləyim ki, heç zaman halal istirahətə marağı və imkanı olmayan çobanların da bəziləri sürülərini çöldə qoyub bu əziz qonağın yanına gəlirdilər. Onlardan biri də Söyün adlı bir eloğlumuz idi. O, həm eloğlu, həm qohum və həm yaşlı bir adamıydı. Və bu görüşdən o qədər ruhlanmışdı ki, özü danışmaq istəyir və başqalarına, o cümlədən Aşıq İslama imkan vermirdi. Və onun danışdıqlarının heç biri nə mətləbə, nə də məclisin ahənginə uyğun döyüldü. O,deyirdi:

– Ay Slam, ağrın alem, mən uzaxdan gəlmişəm, Dabnoydayam (Udabno). Arxaşannan üzü bəri gəlmişəm. Neçə gündü gəlmək istəyirdim, amma gələ bilmerdim. Sürüdə heyvan çoxdu, mən də təkəm. Hər şeyin öhdəsinnən gələ billəm. Bir kərəqulaq qoyun var. Yaman xamçıldı. Üzülmüş

sürünün qavağında dıvır kimi geder. Hey xama qaçer. Güjüm çatmer. Başqa sürülərin xamına yaman dadanıv, mənidəjə mətəl eyəlif. Sənin yanınaja gələmmerəm.

Məclisdə hər kəsin durumu bəlli. Əlbəttə, Aşıq İslam onu dinləyir. Aşıq Söyün bığını çeynəyir. Və birdən çöyrüldü bu covan babamıza.

– A kişi, adın nədir?

– Adım Söyündü, ağrın alem, ay Aşıq Söyün.

– Ay Söyün, sən nə sənətin saavısan?

– Ağrın alem, ay Söyün, Dabnoydaja qoyuna gederəm, qırx ildi ordojayam. Arxaşannan o üzdə. Ara-sıra Qarayazıda, Ceyrançöldə də olurux.

Dözə bilməyən Aşıq Söyün bu dəfə özünü saxlaya bilmədi:

– Ə, rəhmətliyin oğlu, gedif qoynunu otarsan. O kərə qoyun indi camaatın xam otaracağını taladı.

Çoban:

– Ağrın alem, ay Söyün, elə mən getsəm yaxşı olar. Elə bil hamının dodağına bal bələndi.

Adamların eyni təzədən açıldı və bütün məclis əhli bu xoş ovqatla yenidən Aşıq İslamı dinləməyə başladı. Arabir məclisə baş vuran Aşıq Söyün Saraşdı da sazının zilini zil eləyib, bəmini də bəm eləyirdi.

Nədənsə İslam dayımız bizimlə (Əli və mənlə) daha çox ünsiyyət qurmağa çalışır, imkan düşən kimi sözünün səmtini bizə çöyürürdü. Və Əli də ona bolluca suallar verər və istədiyi cavabı da alardı. Gün o gün oldu ki, Aşıq İslamın bizim öyə qonaqlığa gəlməsi baş tutdu. Qardaşım Eyyub ata-baba yurdumuzdakı ikimərtəbəli evimizin üst qatındakı böyük bir otağı qonaqlar üçün hazırladı. Və təxminən otuza qədər adam da bizə təşrif buyurdu. Yuxarıda dediyim kimi, heç kəs belə müsafirdən ayrılmaq istəmirdi. Əslində bizim Bakıdan gəlməyimiz bizdəki qonaqlığın daha tez baş tutmasına səbəb olmuşdu. Yoxsa çox çətin olacaqdı.

Bizdən sonra növbə gözləyənlərin qolbəyləri ara qatmaq istəyir, bizim süfrəmizi alabaydaq eləməyə (pozmağa) çalışırdı. Bunu da hər kəs hiss eləyir, fəqət üzə vurmamağa səy göstərirdilər.

Aşıq İslam ariflər arifiydi. O hər kəsin necə nəfəs almasını belə diqqətlə izləyirdi. Əlbəttə hər kəs onun belə davranışına heyrandı. Və süfrədəkilər həm söhbəti dinləyir, həm də yeməyi yeyirdi. Araqatansa qonağın (əsas qonağın - Aşıq İslamın) məclisdən tez çıxmasını və onu göndərən adamın evinə getməsini istəyirdi. Onu da deyim ki, bu əziz qonaqdan bir an da olsun ayrılmayan və onun bütün davranışlarını izləyən KQB buyruqçuları da yox deyildi. Bunlar kimin nə danışdığını sözü-sözünə öz ağalarına çatdırmağa çalışırdılar. Əlbəttə, bunun müqabilində onlar da bir "malades" qazanırdılar. Və bütün bular da Aşıq İslamın diqqətindən kənarda qalmırdı. Və ona görə də "mən arifəm, işarədən qananam" işarəsini çox rahat bilirdi.

Aşıq İslam gözlənilmədən ayağa qalxdı və bir qabdakı qatığı əlinə götürüb yenə üzünü Əliyə tutdu:

– Əzizim Əli, bu əlimdə tutduğum qabın içindəki nədir?

– İslam dayı, o qabın içindəki qatıqdı, dedi.

Aşıq İslam halını pozmadan:

– O ki, südüydü, bu nə təhər oldu ki, bu qatıq oldu?

Əli cavab verdi:

– Onun evini çalası yıxdı. İçinə çalası qatılmasaydı o saf süd olaraq qalacaqdı.

Aşıq İslam bir gülünnən min gül oldu. Bərəkallah, oğul, dedi. Düz dedin.

Bütün məclisdəkilər hər şeyi anladılar.

Çox qəribə bir yolkəsmə olayını da xatırlayıram, həmən günnən. Bizim evdən çıxıb başqa bir eloğlunun evinə qonaq gedən Aşıq İslamı aparan maşın kəndin aşağı tərəfinnən yola düşdü. Həmin hadisə də orada baş verdi. Sən demə qonaqlığa əvvəlcədən hazırlıq görən Bayram Hullan oğlu həm də çox ağıllı bir fürsət gözləyirmiş. Belə ki, evinin qabağınnan keçən qonaq maşınının qabağına bir kötük dığırladı və maşın da məcbur saxladıldı. Elə bu anda özü gəldi və Aşıq İslamı evinə dəvət elədi. Əlacı hər yerdən kəsilənlər onunla razılaşmaq zorunda qaldılar. Və Aşıq İslam bu yolkəsmədən çox məmnun qalaraq Bayramın süfrəsində bir tikə çörək kəsməsək olmaz dedi. Həmin süfrədə Əli və mən də oturduq. Biz Bayramdan soruşanda ki, niyə belə eylədin, o da bizə belə cavab verdi:

– Ayrı cür mən bu adamı qonaq gətirə bilməyəcəkdim. Ona görə də qurduğum bu oyun baş tutdu.

Aşıq İslamın görüşünə Azaflı Mikayıl gəlmişdi. Onların görüşü bir toy-tamaşaya çöyrülmüşdü. Bu xəbəri eşidən, bilən yaxın-uzaq hər kəs onların məclisində iştirak eyləyirdi. Üç gün Azaflı Mikayıl Keşəlidə, Aşıq İslamın yanında qonaq oldu. Çaldılar, oxudular, dastan söylədilər. Yağlıcada, binələrdə oldular. Unudulmaz anlar və günlər yaşatdılar bizlərə. Xatirələr bir deyil, beş deyil. Onda 51 yaşındaydı Aşıq İslam Ərdənər. Saçında bir dənə də olsun ağ tük yoxuydu. Bir dəfə Rustavidə saçına təraş elətdirməyə gedirdi. Anaxanım büvüm məni yanına çağırıb dedi ki, İslam dayının saçını orda yerə tökülməyə qoyma. Onları mənim verdiyim çit parçaya büküb mənə gətirirsən. Elə də eylədim...

**Əli Şamil**

# QARSLI AŞIQ İSLAM

Göyçə mahalında doğulduğumdan aşıq mühiti, dastanlarımız, aşıqlarımız və el şairlərimizin yaradıcılığı ilə yaxından tanış idim. Bakı Dövlət Universitetinin jurnalistika fakultəsində oxusam da filologiya fakultəsinin tələbələri kimi folklor nümunələri toplayır, aşıq musiqisinə daha çox qulaq asır, aşıqların məclisinə daha çox meyl edirdim. 1972-cü ilin yazı idı.Son kursdaydım.Osman Əhmədoğlu həyəcanla gəldiki, Qənbər Türkiyədə yaşayan dayısı Aşıq İslamı Keşəliyə gətirdib.Maraq qorxuya üstün gəldi.Biz ikinci kursda oxuyanda fakültəmiz ayrılmış, Şirməmməd Hüseynov da dekan seçilmişdi.Onun zəhmindən nəinki biz tələbələr, hətta müəllimlər də çəkinərdilər.Fakültədə müxtəlif bəhanələrlə ondan icazə alıb gedən tələbələrin başına gətirdiyi hadisələr geniş yayılmışdı.Aşığın görüşünə getməyə Şirməmməd müəllim icazə verməyəcəyini yaxşı bilirdim.Bir yalan uydursam da sonar üstü açılıcağından qorxaraq dərsləri yarımçıq buraxıb elə həmin axşam qatarla yola düşdük. Səhər tezdən Rustavidə qatardan düşüb Keşəliyə yollandıq.

Həmin illərdə Türkiyədən qonaq gətirtmək hər oğulun işi deyildi. Cəmiyyətdə yüksək mövqeyi, nüfuzu olan, mənəm-mənəm deyənlərin çoxu ən yaxın qohumlarını belə danırdılar. Belə bir çətin şəraitdə Qəmbər (Allah rəhmət eləsin) xeyli pulundan keçib, başına bəla açıla biləcəyindən qorxmayıb İslam Ərdənəri Türkiyədən-Karsın Kümbətli köyündən qonaq gətirdə bilmişdi.

Aşıq İslamın gəlişi yalnız Keşəlidə deyil, ətraf kəndlərdə də bayram əhval-ruhiyyəsi yaratmışdı. Onu evinə qonaq dəvət etmək üçün adamlar növbəyə düzülmüşdü. Özü də tək İslam kişini deyil, başının dəstəsi ilə qonaq çağırırdırlar.Hər qonaqlıq bir toy məclisini xatırladırdı.Hamı kimi biz də Aşıq İslamın söz-söhbətindən doymaq bilmirdik.Bunun bir səbəbi də o idiki, Aşıq İslam bir məclisdə etdiyi söhbəti ikinci məclisdə qətiyən təkrarlamırdı. Türkiyədə adamların həyat tərzinə, yaşayışına, ən xırda məişət məsələlərinə dair onlarla sual verirdilər. Aşıq İslam da suallara səbr və təmkinlə cavab verirdi. Bir çoxları da xəlvətdə İkinci Cahan Savaşında və ondan əvvəl izsiz soraqsız yoxa çıxan qohum-qardaşlarını xəbər alırdı.

Xəstə Hasanla bağlı heyrətləndirici bilgi

Folklora, xüsusən də aşıq yaradıcılığına maraq ğöstərdiyimizdən Aşıq İslamın söhbətlərini diqqətlə dinləyirdik. Həmin illərdə Türkiyədən Azərbaycana kitab, qəzet, jurnal çox az gəlirdi. M.F. Axundov adına Respublika kitabxanasının abunəçişi olduğu “Türk Folklor Araşdırmaları”, “Yedditəpə”, “Dil” və s. jurnalları maraqla oxuyurduq. Orada, bir də Türkiyə radiosunun verlişlərindən tanıdığımız el sənətkarları – Sümmanı, Şenlik, Zülali və b. haqqında Aşıq İslamdan əlavə bilgi almağa çalışır, həm də özümüzün məlumatlılığımızı göstərirdik.

Aşıq İslam Ərbabinin “Səni” rədifli qoşmasını söylədiymə o qədər də təəccüb etmədi. Onun haqqında xeyli xoş sözlər söylədi. Mən də bu fürsətdən yararlanıb təssüflə bildirdim ki, jurnalda aşığın çox dəyərli divanisindən bir beyt veriblər. Aşıq İslam hansı divaninin bir beytini verdikləri ilə maraqlandı. Mən də aşığın Türkiyədə çap olunan jurnalı oxumadığını hiss edən kimi daha həvəslə, bir az da özümü göstərənsayaq:

Həsrətindən xəstəyəm, təşni-zəbanım bir su ver.
Hörmət eylə gəl mənə, ey mehribanım bir su ver.

Beytini deyəndə Aşıq İslam aramla və şirin bir səslə sanki mənim söylədiyim şeiri davam etdirdi.

Sallanıban bağdan gələn, ay maralım, bir su ver.
Malım-mülküm sənin olsun, küllü varım, bir su ver.
Vücudumu atəş aldı, dumanım ərşə çıxar,

Qurudu dilim-dodağım, dili-fəraqım, bir su ver.

Gözəllər xətri əzizdi bir-birindən seçmərəm,
Versələr də dünya malın sevdiyimdən keçmərəm.
Yad əlindən abı-həyat olursa da içmərəm,
Özün doldur, öz əlinlə ey məlalım bir su ver.

"Xəstə Hasan gəldi" deyə çağırarlar adımı,
Eşq ucundan yandi cismim, eşidin fəryadımı,
Neyləyirəm dünya malın, almasam muradımı,
Qaşı hilal, abı zülal, ləbi balım, bir su ver.

Divaninin möhürbəndindəki Xəstə Hasanın təxəllüsü mənim kimi məclisdə əyləşənləri də çaşdırmışdı. Ona ilk etiraz edən Osmanla mən oldum. Belə gözəl bir şeirin Xəstə Hasanın olduğuna inanmadığımızı, nəsə bir yanlışlıq olduğunu söylədik.Bizim bu çür təpkimiz İslam Ərdənəri çaşdırdı.

Müəllimlərimizin elminə güvəncli olduğumuzdan və oxuduğumuz kitabların təsirindən Aşıq İslamın dediklərini saf-çürük etmədən ona Xəstə Hasanı olduqca zəif və istedadsız bir aşıq kimi tanıtmağa çalışdıq. Fikirlərimizi əsaslandırmaq üçün də Xəstə Hasanın, Xəstə Qasımın qıfılbəndini öz adından Aşıq Ələsgərə göndərdiyi, Ələsgərin də qıfılbəndi açdığını və son bəndlərindən birində

Qasım "qaf" nandı, Hasan "hey"inən,
Xeyir çekməz usdadınnan deyinən,
İşim yoxdur seyidnən, bəyinən,
İxtiyarımda qaldı məxluqat,
Daimil-övqat.

deməklə bu şeirin Xəstə Qasımın olduğuna işarə vurduğu haqda olan məşhur rəvayəti misal çəkdik. Məclisdə əyləşələr aşıq yaradıcılığı ilə yaxından tanış olduqlarından Aşıq Ələsgərin şeirləri çap olunmuş kitab tapıb məşhur qıfılbəndi və ona verilmiş cavabları da oxudular.

Aşıq İslam çox təəssüfləndi. Ərbabının da, Xəstə Hasanın da " Bir su ver" divanilərini əzbərdən söylədi və dedi ki, Aşıq Ələsgər böyük sənətkardı. Nə onu bu yolla ucaltmaq olar, nə də Xəstə Hasan kimi bir ustadı belə aşağılamaq. Xəstə Hasan İrəvanlı deyil. Axırkələyin Levis kəndindəndir. Aşıq Ələsgərlə də yaşıd olmayab. Mən Türkiyədə Aşıq Şenliyin şeirlər kitabını çap etdirmişəm. Orada yeniyetmə Hasanı – sizlərin Şenlik kimi tanıdığınız aşığın dayısı İbrahim sınağa çəkdirdirmək üçün Aşıq Nurunun yanına apardığını yazmışam. Aşıq Nuru da Xəstə Hasanın şəyirdi- çırağıdır. Aşıq Nuru Şenliyi sınağa çəkəndə ustadı Xəstə Hasanın üç şeirini söylədib. Şenlik də eyni qafiyə ilə cavab verib. Yeniyetmə Hasan sınaqdan uğurla çıxdıqdan sonra Aşıq Nuru ona sənətin sirlərini öyrədib, "ustad şilləsi" vurduqdan sonra aşıqlıq etməsinə icazə verib. Bunları da mən Aşıq Şenliyin oğlu Aşıq Qasımdan eşıdib yazmışam. Türkiyədə də çoxları bu məsələni bilir. Sizlərin bilmədiyinizə təəccüb qaldım.

O, 1960- cı ildə "Aşıq Şenlik divanı" adlı kiçik bir kitab da çap etdirib. Təəssüfləndi ki, həmin kitabını özüylə gətirə bilməyib. Bu kitabla uzun illər keçəndən sonra tanış oldum. Həmin günlərdə isə Aşıq İslamdan Xəstə Hasanın, Şenliyin, Summanın və başqalarının xeyli şeirini yazıya aldıq. Tanınmış aşıqların da bilmədiyi bu şeirlər Azərbaycanda çap olunmadığı üçün folklorşünaslıqdan dərs deyən müəllimlərimizin də xəbərləri yox idi.

1973-cü ildə universiteti bitirdim. Məni Naxçıvandaki ‘‘Şərq qapisi’’ qəzetinə işləməyə göndərdilər. Osman da öz kəndlərinə döndü. Buna baxmayaraq, Keşəli ilə əlaqəni kəsmədim. İldə olmasa da iki-üç ildə bir oraya gedir, xeyir – şərdə iştirak edirdim. İslam Ərdənər içimizdə bir şübhə toxumu əkib getmişdi...

***

Sonralar da Aşıq İslamla əlaqəni heç zaman kəsməyən ünlü folklorşünas alim Əli Şamil böyük sənətkarı Azərbaycan Aşiqlarının IV qurultayına gətizdirmək üçün Bakıda döyməditi qapı qalmır, axırda ən yuxarı orqanlara yazılı şəkildə müraciət etməli olur. Aşağıda bu fədakar elm adamının yazdığı məktubu və aldığı cavabı olduğu kimi veririk.

**AZƏRBAYCAN KP MK-NIN KATİBİ HƏSƏN HƏSƏNOV YOLDAŞA.**
Hörmətli Həsən müəllim.
Salam. Sizinlə şəxsi tanışlığım olmasa da, mədəniyyətimizin coşğun təbliğatçısı və tədqiqatçısı olduğunuzu bildiyimə görə, məhz Sizə müraciət edirəm. Türkiyədə azərbaycanlıların yaşadığını, onların 1930-cu illərədək respublikamızla müntəzəm əlaqə saxladığını yazmaqla Sizin üçün yeni olan biləcək bir fikir söyləmiş olmaram. Tarixdən, Rus- Türk müharibələrindən də söz açmağı yersiz sayıram. Gözəl bir atalar misalı var: ”Yük əyməsə, daş qürbətə düşməz” deyiblər. Türkiyədə yaşayan azərbaycanlılar orada doğulub boya-başa çatsalar da, özlərini qərib sayırlar və buradakılar da onlar üçün qəribsəyiblər. Buna səbəb əlaqələrin olmamasıdır.

Məlumat üçün onu deyim ki, mənim nəinki Türkiyədə, heç bir xarici ölkədə qohumum və simsarım yoxdur. Amma Türkiyədə yaşayan bir aşıq mənim üçün qohum qədər əzizdir. On ildən çoxdur onunla yazışıram. Şifahi xalq ədəbiyyatımızın zəngin bir xəzinəsini sinəsində daşıyan bu el sənətkarı daim Bakıya gəlmək, bildiklərini xalqımıza və tədqiqatçılara çatdırmaq istəyir. Azərbaycanda klassik irsə böyük əhəmiyyət verildiyindən xəbərdardır.

Arzu edirəm ki, Siz İslam İsa oğlu Ərdənərin Azərbaycan aşıqlarının IV qurultayında iştirakına köməklik göstərəsiniz. Bunu Siz etməsəniz, kiminsə edə biləcəyinə və etmək istəyəcəyinə ümidim yoxdur. Bu barədə akademik Mirzə İbrahimova da müraciət etmişdim. İndiyədək heç məktubuma cavab ala bilməmişəm.

Aşıq İslam Bakıya gəlsə, yalnız qurultayda iştirak etməklə kifayətlənməyəcəkdir. Nizami adına Ədəbiyyat İnstitutunun folklor şöbəsinin əməkdaşları ondan unudulmaqda olan aşıqlarımızın çoxlu şeirini, indiyədək yazıya alınmamış dastanlarımızı toplaya biləcəklər.

Aşıq İslamın hazırda 62 yaşı var. İndi ondan istifadə edib yaddaşındakı “xəzinəni” yazıya köçürməsək, sonra gec ola bilər.Aşıq İslam haqqında Sizdə dolğun təsəvvür yaratmaq üçün haqqında kiçik bir məqalə də yazıb məktubuma əlavə edirəm.

Dərin hörmətlə: Əli Şamilov,
SSRİ Jurnalistlər İttifaqının üzvü.

Aşıq İslamın ünvanı belədir: İslam Ərdənər, Mərkəzi
Kümbətli köyü, PTT şöbəsi, Kars, Türkiyə.

**Mənim ünvanım:**
İndeks 373630, Naxçıvan şəhəri, Puşkin küçəsi, ev 73, mənzil 44.

***

**Qeyd: Həsən Həsənova göndərdiyim məktuba bir neçə ay sonra aşağıdakı cavabı aldım.**

Azərbaycan SSR Mədəniyyət Nazirliyi
Bakı, 370016. Hökümət evi. Tel. 93-30-02
№ Ş-272/04 20.V. 1983-cü il.
Naxçıvan şəhəri, Puşkin küçəsi, ev 73, mənzil 44-də yaşayan Ə. Şamilov yoldaşa

Sizin Azərbaycan KP- MK-nın katibi H.Həsənov yoldaşın adına yazdığınız ərizəyə cavab olaraq bildiririk ki, hələlik Azərbaycan aşıqlarının IV qurultayı nə vaxt çağrılması dəqiq müəyyənləşdirilmədiyindən Türkiyədə yaşayan Aşıq İslamın həmin qurultaya çağrılması barədəki təklifinizin həyata keçirilməsinə imkan və ə sas yoxdur.

Mədəni-maarif müəssisələri idarəsinin rəisi: R.Kaşıyev.

(”Aşıq İskəndər Ağbabalı’’ kitabı Bakı 2006, səh.90,96)

## TÜRKİYƏDƏN GƏLƏN MƏKTUBDA NƏ VARDI

Təxminən bir neçə ay bundan öncə Türkiyənin Ankara şəhərindən bir məktub aldım. Əslində bu məktub bağlamanın göndərilməsinin əsas səbəbkarı ötən il Borçalıda – doğmalarının evində qonaq olan Alı Dündar (o, tanınmış türkoloq-siyasətçi Bilal Dündarın abisi – böyük qardaşıdır, Qars vilayətinin Dikmə köyündə yaşayan Borçalı əsilli qarapapaqlardandır) olmuşdur. Alı Dündar aşıq ədəbiyyatının gözəl bilicisi, bölgədə yaşayan qarapapaqları çox yaxşı tanıyan bir şəxsdir.

Məktubu göndərən şəxs isə Qarslı Aşıq İslam Ərdənərin böyük oğlu Musa bəy idi. Musa Ərdənər bir ustad ozan oğlu, eyni zamanda aşıq tədqiqatçısı, folklorşünasdır. O, bağlama ilə bizə atasının arxivindən götürdüyü İslam Ərdənər və Faxralı şair Nəbinin xeyli şeirini, eyni zamanda bizim aşıq ədəbiyyatımızla bağlı olan çox maraqlı və yeni materiallar göndərmişdir.

Oxucular üçün maraqlı olar deyə əvvəlcə Aşıq İslam Ərdənər haqqında qısaca da olsa bəzi məlumatları vermək istəyirik. (Məktubda sözü gedən ikinci şəxs – Borçalı şair Nəbi haqqında oxucularda kifayət qədər geniş məlumatlar olduğunu nəzərə alıb, onunla bağlı bilgilər verməyə lüzum görmədik. Belə ki, Borçalıda hər kəs şair Miskin Nəbinin kim olduğunu çox gözəl bilir).

Aşıq İslam Ərdənərin əsli Borçalı Qarapapaqlarındandır. Onun atası İsə (İsəxan) ötən yüzilliyin əvvəllərində Dağ Borçalısının Soyuqbulaq (Ermənistan, Kalinino rayonu) kəndindən köçmüşdür. Əslində, İsə öz dədə-baba yurdundan könüllü olaraq köçməmişdir. O, həmin dönəmlərdə məlum erməni olayları ilə ilgili olaraq qaçqın düşənlərdəndir. Ümumiyyətlə götürsək, bu ailənin soy-kökü Soyuqbulaq kəndinə Aran Borçalısının Dəmirçihasannı bölgəsindəki Kürüstü Keşəlidən (indiki Marneuli rayonu) getmişlər. Aşıq İslam 1921-ci ildə Karsın Kümbətli (Ladı kars) köyündə anadan olmuşdur. İsə Qarsa qaçqın düşən zaman onun Soyuqbulaqda Anaxanım adlı körpə bir qızı bu üzdə qalmışdır. Dədəsinin himayəsində böyüyən Anaxanım həddi-büluğa çatanda ata-baba yurdları Keşəliyə ərə getmişdir.

Zamanında aşıqlığa böyük həvəs göstərən İslam İsə oğlu türk dünyasının böyük ozanı Şenniyin yadigarı Aşıq Qasıma çıraqlıq etmiş və sənətin bütün incəliklərini ustadından gözəl əxz edə bilmişdir.

Qars, Ərdahan, Sarıqamış, İqdır, Çıldır və s. bütün Qarapapaq köylərini kəndbəkənd gəzərək toy-düyün keçirmiş çox böyük ad-san qazanan Aşıq İslam Ərdənər layiqli bir ustad ömrü yaşamışdır.

Aşıq İslamla bağlı yuxarıdakı qısa məlumatlara bir də onu əlavə etmək istədik ki, Keşəli kəndində yaşayan aşığın bacısı oğlu Borçalının çox böyük ziyalısı Qıllözdü Qəmbər Omar oğlu (Allah ona rəhmət etsin) 1972-ci ilin yazında çox uzun bir əzab-əziyyətdən sonra doğma dayısı Aşıq İslam Ərdənəri qonaq gətirməyə müvəffəq olmuşdur.

Sovetlər birliyinin qılıncının hər iki tərəfinin də möhkəm kəsdiyi bir zamanda belə hal çox nadir hadisə sayılırdı. Yəni Türkiyədən qonaq gətirmək hər kəsin işi deyildi. Bax onda Aşıq İslam Ərdənər Qars bölgəsində yaşayan Borçalı Qarapapaqları və onların bütün qohum-əqrabaları barədə hamıya ətraflı məlumatlar verə bilmişdir. Bu sətirlərin müəllifinə də ünlü ozan Aşıq İslam Ərdənəri o vaxtlar görmək xoşbəxtliyi nəsib olmuşdur.

Mətləbdən uzaq düşməyək: məktubda Musa bəy atası Aşıq İslam Ərdənərin hafizəsindən yazıya köçürdüyü (şair Nəbinin sözlərini ustadı Aşıq Qasımdan, o da bəlkə də öz atası Aşıq Şennikdən eşitmişdi). Faxralı Nəbiyə aid bir neçə qoşma və bir neçə deyişmə (şairin əmisi oğlu Söyün Mahmud oğlu ilə) vardı. (Aşıq Şenniyin Faxralıya bir neçə səfəri haqqında məlumat çoxdur).

Məktubda Miskin Nəbiyə məxsus şeirləri şairin çap olunmuş kitabları ilə tutuşdurduq. Beş şeirdən dördü kitabda vardı. Birini isə tapa bilmədik. Deyişmələrə gəlincə, qeyd etmək istəyirik kitabı ərsəyə gətirən gözəl tədqiqatçı alim, folklorşünas, həmyerlimiz, Faxralı əsilli Elxan

Məmmədli ön sözdə bildirmişdir ki, şair Nəbi ilə əmisi oğlu Söyün Mahmud oğlunun əlimizdə doqquz deyişməsi var. Ancaq onlardan nümunə üçün kitabda üçünü vermişdir. Düzdür, bizə göndərilən deyişmələrdən biri kitabda yox idi, ancaq güman edirik ki, tədqiqatçılarda da bu deyişmə ola bilsin ki, var.

Hər halda Elxan müəllim kitabın ön sözündəki müraciətini nəzərə alaraq (o yazır ki, şair Nəbinin hələ xalqdan toplanmamış, ayrı-ayrı adamların yaddaşlarında çoxlu şeirləri var, gələcəkdə yəqin ki, onlar da üzə çıxarılacaq) həmin şeirlərdən bəzilərini qəzetə vermək fikirinə düşdük. Ola bilsin ki, həmin şeirlər, şairin vaxtilə hansısa nəşr olunmuş kitabında çap olunub, hər halda biz ona rast gəlmədiyimizə görə, (bir də ki, böyük şairin ruhunun xatirəsinə) təkrar da olsa, belə məqsədəuyğun hesab etdik.

Görünür, şeirlər yerli aşıqların dilindən eşidildiyinə görə Qars ağzı ilə yazıya alınıb.

Hər halda şeir Qarapapaqlar ləhcəsində eşidildiyi və orada yazıya alındığı üçün, biz onu heç bir düzəliş etmədən olduğu kimi saxlamağı məqsədəuyğun saydıq.

Eksilir

Bir senenin ol miqdarı ne artar, ne eksilir,
Mahi-tabanın zerresi ne artar, ne eksilir.
İncil, Zabur, Tevrat Quran ayettir baştan-başa,
Emri-nehyi bir hesabı ne artar, ne eksilir.

Rızkı gelir yayda lezzet verir güzüne,
Her birisi bir türlüdü baxın çoxun azına,
Mahi-taban gerdiş eyler düşer dünya yüzüne,
Bu qararın bir sahibi ne artar, ne eksilir.

Nebi diyer, fani dünya bilsen neden quruldu,
Bulandı gönlümüz evi, Mevlam özü duruldu
Her ne qaderimiz varsa alnımıza vuruldu,
İlahinin bir qelemi ne artar, ne eskilir.

**“Region Press” qəzeti**
**N 12 (163) 30.06.2014.**

**Öztürk Erbek**
**qəzetəçi - yazar**

## İSLAM ƏRDƏNƏR

Arasam bulunmaz böylə bir aşık,
Sənətın özüdür İslam Ərdənər.
Təcrübə gazanıb bu günə gəlmiş,
Sənətın gözüdür İslam Ərdənər.

Gecə-gündüz sazlarının başında,
Əməyi var toprağında daşında,
Haram yoxdur əkməyində aşında,
Sənətın düzüdür İslam Ərdənər.

Ozanlığı başarıyla bitirmiş,
Çıraqları bir araya gətirmiş,
Könüllərdə taxt qurub oturmuş,
Sənətın sözüdür İslam Ərdənər.

Hoş görü ozanı dost qəniməti,
Anlatmakla bitmiyor ki hizməti,
İnsanlardan əsirgəməz hörməti,
Sənətin közüdür İslam Ərdənər.

Aşıqlıq ruhu vardır onun özündə,
Əsla yalan yoxdur doğru sözündə,
Ziyaniyəm gidiyorum izində,
Sənətın izidir İslam Ərdənər.

**QAYNAQLAR**


1. Kürüstü Dəmircihasannı (M. Aşırlı, M. Qillözdü, O. Dərviş), l-kitab. Bakı, 2003.
2. Borcalı aşıqları. (M. Kamaloğlu, O. Dəvriş, Ş. Qarapapaq ) Bakı 2005
3. Aşıq İsgəndər Ağbabalı ( Əzizə Şamil, Əli Şamil ) 2-ci nəşir Bakı 2012
4. Çıldırlı Aşıq Şenlik divanı ( həyatı, seirləri, deyişmələri, hekayələri) hazırlayanlar: prof. Ali Berat Alptekin- M. Nizameddin Çoşkun. Ankara 2006.
5. “ Region press” qəzeti N12 ( 163), N13(164) 2014 (Marneuli)
6. Aşıq İslam Ərdənərin şəxsi arxivi.
7. Qarapapaqlar ləhcəsinin sözlüyü ( M. Kamaloğlu) Bakı 2006
8. Aşıq Senlik divanı ( tərtibci: İslam Ərdənər) Kars 1960.
9. Hüseyn Saraçlı (hazırlayanı: Musa Nəbioğlu) Bakı 2016

## KİTABIN XEYİRXAHI

Məhəmməd Yusif oğlu Yusifov 4 avgust 1957-ci ildə Borcalı mahalının Keşəli kəndində ziyalı ailəsində dünyaya gəlmişdir. Səkkizillik məktəbi doğma kəndində bitirdikdən sonra, 9-cu sinifi Dağ Borçalısının İlməzli kənd orta məktəbində oxumuşdur. Orta məktəbi 1974-ci ildə qonşu Kəpənəkci kəndində bitirmişdir. O, 1979-ci ildə Azərbaycan Politexnik İnistitunun inşaat-texnologiyası fakultəsini əla qiymətlərlə başa vurmuşdur. Məhəmməd əmək fəaliyyətinə təyinatla göndərildiyi Başqırdstanın Sterlitamak şəhərində silikat kərpiçlər zavodunda usta köməkcisi kimi başlamışdır. 1980-81-ci illərdə hərbi xidmətdə olmuşdur.

Hərbi xidməti başa vurandan sonra vətənə dönən Məhəmməd Yusif oğlu 1982-84-ci illərdə Marneuli rayon komsomol təşkilatında təlimatçı, 1986-87-ci illərdə rayon partiya təşkilatinda təlimatcı kimi məsul vəzifələrdə çalışmışdır.

1987-ci ildə o, Marneuli rayon Komsomol təşkilatının birinçi katibi (o vaxtlar bu cox yüksək vəzifə hesab olunurdu) seçilmişdir.

Sovetlər birliyi dağılandan sonra o, bir müddət şəxsi biznes fəaliyyəti ilə məşğul olmuşdur.

1994-ci ildə Keşəli dövlət təsərrüfatına (həmin vaxtlar bu təssərüfata Keşəli və İlməzli kəndləri daxil idi) direktor vəzifəsinə təyinat almışdır. Calışdığı müddət ərzində rəhbərlik etdiyi təsərrüfatı rayonda qabaqcıl təsərrüfatlar sırasına cıxarmış, kəndlərdə xeyli abadlıq işləri gördürmüşdür:bu kəndlərdə həyətyanı torpaq sahələrinə möhkəm ehtiyacı olan 425 ailəni öz arzusuna çatdırmışdır.

1996-97-çi illər ərzində Gürcüstanda dövlət təsərrüfatlarının reforması başlandı və o icarə formasında yerli sakinlərə paylanıldı.

Elə həmin vaxtlarda da Məhəmməd Yusif oğlu özünün şəxsi fermer təsərrüfatını yaratdı. Son illərdə o yaratdığı həmin təsərrüfatını çalışdırmaqla yanaşı Marneuli rayon bələdiyyə sədrinin ( sakrebulonun) müavini (1999-2000) vəzifəsini tutmuşdur.

Hal-hazırda doğma kəndində yaratdığı həmin fermer təsərrufatında çalışır.

Onun üc övladının (iki oğlu və bir qızı var) ücü də alli təhsillidir. Məhəmməd Yusif oğlu eyni zamanda altı nəvə babasıdır.

Kitabın ışıq üzü görməsində göstərdiyi dəstəyə görə qeyrətli ziyalımıza təşəkkürümüzü bildiririk.

**MAHMUD KAMALOĞLU**

Mahmud Kamaloğlu ( Hacıxəlilov) 1954-cü il aprelin 5-də Borcalının Keşəli kəndində anadan olub. Səkkizillik məktəbi doğma kəndində, orta məktəbi qonşu Kəpənəkçi kəndində bitirib. 1971-75-ci illərdə A.S. Puşkin adına Tbilisi Dövlət Pedaqoji İnstitutunun filologiya fakultəsini bitirib. Elə həmin ildən " Sovet Gürcüstanı" (indiki "Gürcüstan'') qəzetində ştatdankənar müxbir kimi əmək fəaliyyətinə başlayıb. Həmin illərdə paralel olaraq Keşəli orta məktəbində müəllim işləyib.1984-ci ildən 1990-cı islədək "Sovet Gürcüstanı" qəzetində müxtəlif vəzifələrdə calışıb.

M. Kamaloğlu 1990-91-ci illərdə Tbilisi Bazar İqtisadiyyatı və Hüqüq Universitetində dekan, 1992-1998-ci illərdə Kvemo Kartli Müstəqil Universitetində tədris və elmi işlər üzrə prorektor, 1998-2007-ci illərdə İ. Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin Kvemo Kartli filialında yenə də həmin vəzifədə, 2008-ci ildən indiyədək Ukrayna-Gürcüstan Beynəlxalq Elmi-Tədris İnstitunda tədris işləri üzrə prorektor olaraq çalışır.

1989-cu ildə filologiya elmləri namizədi alimlik dərəcəsi alıb. 2005-ci ildə İ. Cavaxişvili adına TDU-nun professoru seçilib.

M. Kamaloğlunun indiyədək 11 kitabı ışıq üzü görüb. Elmi məqalələri Rusiya, Özbəkistan, Dağıstan, Azərbaycan, Türkiyə və Gürcüstan mətbuatlarında çap olunub. O, bir cox xarici ölkələrdə təşkil olunmuş beynəlxalq elmi konfrans və simpoziyumlarda məruzələrlə cıxış edib.

2015-ci ildə Ali Mediya mükafatına layiq görülüb.